Xalqın qəzeti!

# Xalq qəzeti

№ 145 (30549) 13 iyul 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


# Azərbaycan–Pakistan: uzaq ölkələrin yaxın dostluğunda yeni mərhələ

## Azərbaycan Prezidenti İlham Əliyevin Pakistana dövlət səfəri

### Prezident Asif Əli Zərdari ilə geniş tərkibdə görüş

**İyulun 12-də İslamabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari ilə geniş tərkibdə görüşü olub.**

Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi. Pakistanın və Azərbaycanın daim bir-birini dəstəkləməsi, xüsusilə torpaqlarımız otuz il ərzində işğal altında olduğu dövrdə Pakistanın ölkəmizə siyasi dəstəyi, Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etməsi, beynəlxalq hüququn prinsiplərini rəhbər tutması yüksək qiymətləndirildi.

Hazırda ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.

Prezident Asif Əli Zərdari Azərbaycanın COP29-a ev sahibliyi etməsi münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı Pakistan Prezidentini COP29-a dəvət etdi.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin, investisiya sahəsində əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olundu.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.





# "Qarabağ Azərbaycandır!" demək xoşbəxtliyi

## Yaxud Azərbaycan–Pakistan münasibətlərindəki dərin dəstək amili



**Azərbaycan Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasına dövlət səfəri bir çox məqamları ilə yadda qaldı. Həmin məqamlara diqqət yetirmək gözlərimiz önündə qürur və fəxarət səhnələri canlandırır. Bu canlanma isə həm günümüzün misilsiz örnəyidir, həm gələcək üçün dəyərli mirasdır, həm də dünyada ədalətin bərpası naminə nümayiş etdirilmiş son dərəcə ciddi müqavimətdir.**

Bəli, beynəlxalq müstəvidə ədalətsizliklər baş alıb gedir. Onlar sanki normaya çevriliblər. Bu mənfi tendensiyadan zərər görmək baxımından Azərbaycanı və Pakistanı birləşdirən ortaq məqamlar var. Tanrıya şükürlər olsun ki, ölkəmiz otuz ilə yaxın müddətdə uğradığı ən böyük ədalətsizliyi aradan qaldırmağa müvəffəq oldu. Növbə Pakistanındır. Dost və qardaş ölkə bu mənada Azərbaycanın dəstəyinə hər zaman arxayın ola bilər və arxayındır.

*(ardı 3-cü səhifədə)*

# "Yaşıl hidrogen"–gələcəyin əsas enerjisi

**Uzun bir dövr ərzində dünyada tələbat əsas enerji daşıyıcısı kimi kömür, neft və qaz kimi yanacaq növləri ilə qarşılanıb. Ancaq zaman keçdikcə bu ənənəvi resurslar həm azalmağa başlayıb, həm də onların istifadəsinin ekoloji tarazlığın pozulmasına təsiri aydın nəzərə çarpıb. Təbii ki, belə bir şəraitdə hidrogen enerjisinə maraq da artıb.**




Hidrogen özü yüngül olduğu üçün yanma zamanı ondan 3 dəfə çox istilik almaq mümkündür. Təsadüfi deyil ki, bu sahədə mövcud potensialın zənginliyinə və ekoloji təmizliyinə görə hidrogen "gələcəyin yanacağı" adlandırılır.

Əsas enerji mənbələrindən biri sayılan hidrogen iqlim böhranı ilə səmərəli mübarizədə və davamlı inkişafı dəstəkləməkdə əhəmiyyətli rol oynayır. Uzun bir dövrdə güclü transformasiyaya uğrayan hidrogen enerjisi bu gün "yaşıl gələcəy"ə gedən yolda daha çox diqqət çəkir, karbonsuzlaşma prosesində mühüm önəm daşıyır, davamlı inkişafın əsas komponentləri sırasında yer alır.

**(ardı 8-ci səhifədə)**

# Monolit "üçlük", məsud qardaşlıq



Səhifə ⇨ 4

# "Xankəndi" sualtı tikinti gəmisi modernləşdirilir

## Bu məqsədlə 300 milyon dollarlıq müqavilə imzalanıb

**BP şirkəti Xəzər dənizində apardığı əməliyyatlara dəstək üçün "Xankəndi" sualtı tikinti gəmisinin istismarı və texniki xidməti üzrə yeni müqavilə bağlandığını elan edib. Dəyəri 300 milyon dollardan artıq olan bu müqavilə "Saipem Contracting Netherlands B.V.", eləcə də onun tərəfdaşları olan "BOS Shelf LLC" və "BOS Shelf International FZCO" şirkətlərindən ibarət konsorsiumla imzalanıb.**



2022-ci ildə başlamış rəqabət əsaslı tender prosesinin nəticəsində verilmiş müqavilə BP-nin və tərəfdaşlarının Xəzərdə öz dəniz əməliyyatlarının təhlükəsizliyini və səmərəliliyini daha da artırmaq üçün düşünülmüş vahid gəmi strategiyasının məqsədlərinə uyğundur.

*(ardı 7-ci səhifədə)*

# Makronun olimpiya "marafonu"

Səhifə ⇨ 6

# Azərbaycan Prezidentinin şərəfinə dövlət ziyafəti



İyulun 12-də İslamabadda Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdarinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə dövlət ziyafəti verilib.

# "Milli Aerokosmik Elm və Texnologiya Parkı"nda hərbi sərgi ilə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də İslamabadda Pakistan Hərbi Hava Qüvvələrinin Nur Xan bazasının ərazisindəki "Milli Aerokosmik Elm və Texnologiya Parkı"nda (NASTP) hərbi sərgi ilə tanış olub.**



Dövlətimizin başçısına sərgi haqqında məlumat verildi.

Bildirildi ki, müxtəlif bölmələrdən ibarət sərginin "NASTP Alpha" hissəsində Pakistan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri, kosmos, radar, simsiz rabitə sistemləri, simulyatorlar, kibertexnologiyalar, informasiya texnologiyaları, proqram təminatı və süni intellekt sahələrində məhsullar nümayiş etdirilir. Bu bölmədə, həmçinin "NASTP PSDP", Təlim, Sertifikatlaşdırma və Aviasiya Xidmətləri bölmələri yerləşir. NASTP özündə İnkişaf etməkdə olan Sistemlər və Texnologiyalar İnstitutu (NIEST) bir neçə imza təlim mərkəzini, eyni zamanda, İnkişaf Edən Texnologiyalar və Sistemlər Məktəbini birləşdirir.




Sərginin "NASTP Alpha" hissəsində Aviasiya Universitetinin Milli Kibertəhlükəsizlik Mərkəzi yerləşir.

NASTP Aviasiya Akademiyası "Milli Aerokosmik Elm və Texnologiya Parkı"nın qabaqcıl layihəsi olmaqla dünya səviyyəli təlim institutu və uçuş, təhlükəsizlik və texniki xidmət üzrə təlimlər üçün regional mərkəzə çevrilmək niyyətindədir.

Sərginin "Alpha Techno" guşəsində isə istər startap, istərsə də yaradılmış biznes və ya müəssisələrlə bağlı maneəsiz və sərfəli iş sahəsi həlləri təqdim olunur.

# Prezident İlham Əliyevin Pakistana dövlət səfəri başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasına dövlət səfəri iyulun 12-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Pakistan Hərbi Hava Qüvvələrinin Nur Xan bazasında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Pakistanın daxili işlər naziri Syed Mohsin Raza Naqvi və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**




# Prezident İlham Əliyevin Pakistana dövlət səfəri dünya mediasında

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasına dövlət səfəri bu ölkənin nüfuzlu media orqanlarının diqqət mərkəzindədir.**



İngilis dilində nəşr olunan "The Express Tribune" qəzeti "Pakistanla Azərbaycan arasında əlaqələrin möhkəmləndirilməsinə dair 15 sənəd imzalanıb" sərlövhəli məqaləsində İslamabadda Azərbaycan ilə Pakistan arasında imzalanmış sənədlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə mübadiləsi mərasimi barədə məlumat verilib. Oxucuların diqqətinə çatdırılıb ki, iki ölkənin Xarici İşlər nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu, tranzit və preferensial ticarət, mineral ehtiyatlar və geologiya, informasiya texnologiyaları və kommunikasiyalar, elm və texnologiya, kiçik və orta sahibkarlıq və digər sahələr üzrə sazişlər imzalanıb, həmçinin 2024–2029-cu illər üzrə mədəni mübadilə proqramının mübadiləsi olub.




"Whenewsenenglish" nəşrinin "Azərbaycan Prezidenti İlham Əliyev İslamabada iqtisadi əməkdaşlıq gündəliyi ilə gəlib" və "The İnternational News" qəzetinin "Azərbaycan Prezidenti Pakistanda iqtisadi əməkdaşlıq məsələlərini müzakirə edir" sərlövhəli məqalələrində vurğulanır ki, iki ölkə energetika, infrastruktur, nəqliyyat daşımaları və bir sıra digər sahələrdə, o cümlədən müdafiə sənayesində bir sıra layihələri nəzərdən keçirib. Prezident İlham Əliyev qeyd edib ki, iqtisadiyyat, ticarət və sərmayələr sahələrində güclü əlaqələr qurulacaq, qarşılıqlı ticarətin həcmi artırılacaq. Bu məqsədlə ilkin mərhələdə güzəştli ticarət formatına aid 9 maddə müəyyən edilib və bu, yalnız başlanğıcdır.

Pakistan dövlət radiosunun və "Associated Press of Pakistan" agentliyini saytlarında dərc olunan "Prezident İlham Əliyev Pakistan milli abidəsinə əklil qoyub" sərlövhəli xəbərlərdə qeyd edilib ki, Azərbaycanın dövlət başçısı İslamabadda Pakistan xalqının milli birliyini təcəssüm etdirən monumentin önünə əklil qoyaraq qardaş xalqa dərin ehtiramını ifadə edib.

"Radio Pakistan"ın və "Associated Press of Pakistan" agentliyinin saytında, habelə "News of Pakistan" portalında Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərifin iştirakı ilə iki ölkə arasında sənədlərin imzalanması, həmçinin geniş tərkibdə keçirilən görüş haqqında məlumat verilib.



Materiallarda qeyd olunub ki, Baş nazir Şahbaz Şərif Pakistan xalqının Azərbaycan Prezidentinə olan ehtiramını ifadə edib, iki xalq arasında qarşılıqlı sevgi və qardaşlıq hisslərinin olduğunu bildirib. O, İslamabadın Qarabağ məsələsində Bakıya, Azərbaycanın isə Kəşmir probleminin nizamlanmasında Pakistana güclü dəstəyini xatırladıb. Prezident İlham Əliyev isə Pakistan və Azərbaycan xalqlarının çətin zamanlarda bir-birinin yanında olduğunu, 2020-ci ildə Vətən müharibəsi zamanı İslamabadın öz bəyanatları ilə Azərbaycana açıq şəkildə siyasi dəstək verdiyini qeyd edib, eyni zamanda, Bakının Cəmmu və Kəşmir əhalisinin hüquqlarını qətiyyətlə dəstəklədiyini deyib.

"Minute Mirror" nəşrində dərc olunmuş "Şahbaz Şərif Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığı gücləndirir" sərlövhəli məqalədə qeyd edilib ki, Pakistanın Baş naziri qarşılıqlı mənfəətli layihələrə ilkin olaraq 2 milyard dollar dəyərində investisiyalarla bağlı müzakirə aparıldığını, noyabrda onun Azərbaycana səfəri zamanı bu sərmayəyə dair razılaşmaların imzalanmağa hazır olacağını deyib. Diqqətə çatdırılıb ki, tərəflər qarşıdakı illərdə bu rəqəmi daha da artırmağı planlaşdırır.

"İslamad Post", "Pakistan Today" qəzetləri" və "The İnternational News", "Mettis Qlobal" portalları da "Pakistan və Azərbaycan sərmayələrin həcmini 2 milyard dolara çatdırmaq barədə razılıq əldə ediblər" sərlövhəsi altında materiallar dərc ediblər.

Geniş oxucu auditoriyasına malik olan "Nation" qəzetində isə Azərbaycan Prezidenti İlham Əliyevin səfəri ilə bağlı analitik məqalə dərc olunub. Tanınmış pakistanlı siyasi icmalçı Tazin Axtarın müəllifi olduğu məqalədə qeyd olunur ki, Şərqlə Qərbin qovuşduğu və Avropaya qapı açan Cənubi Qafqazın inkişaf edən iqtisadi gücü olan Azərbaycan Respublikasının Prezidenti Pakistanda ikigünlük səfərdədir. O, ikitərəfli münasibətlərin əsl qurucusu olan atası, ümummilli lider Heydər Əliyevdən hərarətli hissləri və qardaşlıq qurmaq həvəsini miras almış lider, Pakistanın böyük dostudur.



Müəllif yazır ki, tarixən hər iki ölkə bir-biri ilə sıx bağlı olub. Qədimlərdə Multani tacirləri Bakıya səfər edirdilər. Bakının köhnə şəhərindəki Multan Saray onların bu gözəl küləklər şəhərinə ticarət səfərlərinin xatirəsidir. Pakistanın Qızılbaş icması Azərbaycandan köçərək torpaqları öz yurdlarına çevirib, sonralar burada Pakistan dövləti yaranıb.

Məqalədə diqqətə çatdırılıb ki, son bir neçə ildə liderlərin müxtəlif beynəlxalq forumlarda, xüsusən də cari ayın əvvəlində Astanada keçirilən ŞƏT-in Zirvə toplantısında görüşləri nəticəsində Azərbaycan ilə Pakistan arasında əlaqələr sürətlə inkişaf edir. Prezident İlham Əliyevin Pakistana səfəri bu təmasların kulminasiya nöqtəsidir. Hər iki ölkə demək olar ki, bütün istiqamətlər üzrə, o cümlədən ticarət, enerji və müdafiə sahələrində sıx, səmimi və inamlı əməkdaşlıq edir. Ona görə də Prezidentin səfəri ikitərəfli əməkdaşlıqda yeni səhifə açır.




Müəllif diqqətə çatdırır ki, Azərbaycan karbohidrogen ehtiyatları ilə zəngindir və hazırda Rusiya enerjisinin Avropaya nəqlinin qadağan olunduğu bir vaxtda Avropa İttifaqı ölkələrinin tələbatını ödəyir.

Məqalənin sonunda deyilir: "Pakistan-Azərbaycan qardaşlığı təkcə onillikləri əhatə etmir, onun kökləri əsrlərə gedib çıxır. İndi iki dövlət arasında münasibətlər ideal olduğundan, hər iki ölkənin liderləri bu nəhəng potensialı onların rifahı naminə əməkdaşlığa yönəldirlər".

Pakistanın urdu dilində nəşr olunan "Urdu.point", "Urdu. Dunya News" qəzetlərində və "Urdu. Dunya TV" telekanalının saytında da Prezident İlham Əliyevin dövlət səfəri çərçivəsində Pakistan Prezidenti Asif Əli Zərdari ilə geniş tərkibdə görüşü, Məhəmməd Şahbaz Şəriflə apardığı danışıqlar və liderlərin bəyanatları, həmçinin imzalanan sənədlər haqqında müfəssəl məlumatlar yer alıb.

Dövlətimizin başçısının Pakistana dövlət səfəri bu ölkənin mediası ilə yanaşı, dünyanın bir çox nüfuzlu mətbuat orqanları tərəfindən də geniş işıqlandırılıb. Səudiyyə Ərəbistanın "Arab News", "Əl Mədinə" qəzetləri, Küveytin KUNA rəsmi agentliyi, Bəhreynin BNA rəsmi xəbər agentliyi, Qətərin QNA informasiya agentliyi, Çinin "China.org.cn" portalı, Türkiyənin "Yeni Akit", "Akşam" qəzetləri, "24", "Haber Türk", EkolTV" telekanalları, Rusiyanın TASS agentliyi, "Vestikavkaza" portalı da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasına dövlət səfəri, bu çərçivədə aparılan danışıqlar və imzalanan sənədlər, Azərbaycanın qardaş ölkənin iqtisadiyyatına investisiya qoyacağı haqqında geniş materiallar yayıb.

**XQ**

# “Qarabağ Azərbaycandır!” demək xoşbəxtliyi

(əvvəli 1-ci səhifədə)

Bakı və İslamabad beynəlxalq miqyasda birlik və həmrəyliyin uğurlu nümunələridir. Elə bir nümunə ki, mənbəyini yalnız müasir dövrün reallıqlarından yox, eyni zamanda, tarixə baxış prizmasından götürür. Axı xalqlarımızı birləşdirən ortaq tarixdə şanlı keçmişin qürur dolu əzmkarlıq yaşantıları var. Hesab edirik ki, bizə qarşı çıxanlar bundan yaxşı xəbərdardırlar, Onlar birliyimizə həsəd də aparırlar.

Ancaq birliyimizin təkrar-təkrar yada salınması, vurğulanması mütləqdir. Beynəlxalq aləm mesajımızın konkretliyinə, sözümüzün bütövlüyünə hər zaman əmin olmalıdır. Heç şübhəsiz, belə bir əminlik ölkələrimizə qarşı əks mövqe tutanların müqavimətini sarsıdan kifayət qədər önəmli faktordur. Elə buna görə də Prezident İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şəriflə mətbuata birgə bəyanatında bildirib: “Biz qardaşıq və dostuq. Biz hər işdə, istənilən beynəlxalq təsisat daxilində, hər beynəlxalq məsələdə bir-birimizi dəstəkləyirik. Məsələn, irəli sürdüyümüz təşəbbüsdə qardaşlarımız bizi dəstəkləyir və eyni dəstək qarşılıqlı olur. Cəmmu və Kəşmir məsələsində bizim birmənalı dəstəyimiz qardaşlığımıza, eləcə də beynəlxalq hüquqa olan sadiqliyimizdir. Kəşmirlilərin hüquqları onilliklər boyu diqqətdən kənarda qalmış, pozulmuşdur. BMT Təhlükəsizlik Şurasının qətnamələri məsələnin necə həll olunmasını aydın şəkildə təsvir edir. Lakin, əfsuslar olsun ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmləri yoxdur. Ancaq qardaş və dost kimi biz Sizinlə, Kəşmirdəki qardaşlarımızla hər zaman yan-yana olacağıq, beynəlxalq hüququn və ədalətin tərəfində dayanacağıq. Mən əminəm ki, ədalət zəfər çalacaq”.

Bəli, Azərbaycanın və Pakistanın qardaşlığındakı nümunəvilikdə bu qardaşlığın beynəlxalq hüquqa sadiqlik prinsipini rəhbər tutma potensialı və gücü var. Bakının və İslamabadın dünya üçün ədalət carçısı statusunu şərtləndirən cəhət də elə budur. Dövlətimizin başçısının bildirdiyi kimi, ədalət zəfər çalacaq. Sadəcə, bunun geci-tezi var.

Azərbaycan və Pakistan qardaşlığındakı möhkəmlik amplitudası özündə gecləri tezləşdirən xarakterə malikdir. Bu, hadisə və proseslərə prinsipial baxışdan, qətiyyətdən qaynaqlanır ki, sadaladığımız xüsusiyyətlər Bakı ilə İslamabad arasındakı yüksək etimad mühitindəki başlıca indiqatorlardır. Deməli, ədaləti doğuran həm də yüksək etimad amilidir.

Pakistanın da Azərbaycana etimadından doğan dəstəyin nəticəsidir ki, ölkəmiz Qarabağ problemini aradan qaldırıb. Pakistan ölkəmizə daha bir ortaq ədalətin təcəllisində – Cəmmu və Kəşmir probleminin həllində etimad göstərə bilər və göstərir də.

Necə deyərlər, dost dar gündə tanınar. Qətiyyətlə deyə bilərik ki, Pakistan dar, çətin günlərimizin dostudur. Dövlət müstəqilliyini qazandığı mürəkkəb şəraitdə ölkəmizə beynəlxalq dəstəyini ifadə edən rəsmi İslamabad torpaqlarımızın işğalına sərt münasibətini göstərmiş, təcavüzkar Ermənistanla diplomatik münasibətlər qurmamışdı. Belə yanaşma xarici aləmə verilmiş ciddi mesaj idi. Özündə ədalətin bərpasının vacibliyini daşıyan mesaj.

Dövlətimizin başçısının da bildirdiyi kimi, Azərbaycan xalqı işğal dövründə Pakistanın hər zaman yanımızda olduğunu yaxşı bilir. Onu da nəzərə alaq ki, rəsmi İslamabad, eləcə də bütövlükdə Pakistan cəmiyyəti İkinci Qarabağ müharibəsi zamanı da bizə birmənalı dəstəyini göstərdi. Türkiyə ilə yanaşı, bu qardaş ölkənin yüksək rütbəli təmsilçiləri ən yüksək səviyyədə bəyanatlar səsləndirərək, haqq davamızın müdafiəsinə qalxdılar. Prezident İlham Əliyev bunun xalqımıza əlavə güc-qüvvət verdiyini açıqladı ki, bu da özlüyündə yüksək qədirbilənlikdir.

Yada salaq ki, 2020-ci il sentyabrın 27-də, yəni Vətən müharibəsi başlayan gün Pakistanın Xarici İşlər Nazirliyi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsində növbəti hərbi təxribatını pisləyən bəyanat yaymışdı. Həmin bəyanatda deyilirdi: “Erməni silahlı qüvvələri tərəfindən sentyabrın 27-də Azərbaycanın Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının kəndlərinin mülki əhalisini intensiv atəşə tutulmasını qınayırıq və bu, növbəti təxribatdır. Bu, bütün bölgənin sülh və təhlükəsizliyi üçün ciddi təhdiddir. Pakistan qardaş Azərbaycan xalqının yanındadır və onun ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı olan qətnamələrinə əsaslanan mövqeyini dəstəkləyirik”.



Onu da xatırlayaq ki, 2020-ci il sentyabrın 29-da Prezident İlham Əliyev Pakistanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bilal Hayenin etimadnaməsini qəbul etmişdi. Səfir o vaxt qardaş Azərbaycan xalqının Pakistan xalqı üçün xüsusi yerinin olduğunu vurğulamışdı. O, ölkəsinin Qarabağ məsələsində həmişə Azərbaycana dəstəyindən söz açaraq bəyan etmişdi: “Bizim qəlbimiz Azərbaycan xalqı ilədir. Biz bildirmək istəyirik ki, sizin mövqeyiniz ədalətli, qanunidir və bu məsələnin həlli qeyri-müəyyən müddətə təxirə salına bilməz, çünki bu, ədalətli mövqedir. Biz “Qarabağ Azərbaycandır!” deməkdən çox xoşbəxtik”.

Dövlətimizin başçısı səfir Bilal Haye ilə görüş zamanı Qarabağ münaqişəsinin həlli ilə bağlı Pakistanın ölkəmizə davamlı dəstəyinə görə minnətdarlığını ifadə etmiş və bildirmişdi: “Bu qarşılıqlı dəstək bizim əməkdaşlığımızın qardaşlıq xüsusiyyətini əks etdirir. Əminəm ki, Azərbaycandakı fəaliyyətiniz zamanı ölkələrimiz arasında münasibətlər daha da güclənəcək. Biz Azərbaycanın ərazi bütövlüyü məsələləri ilə bağlı Pakistana qətiyyətli mövqeyinə görə minnətdarıq. Pakistan Ermənistanı Azərbaycan torpaqlarını işğal etdiyinə görə tanımayan ölkədir. Bu, qardaşlığın əsl nümayişidir. Bütün hallarda Pakistan həmişə bizim yanımızdadır və mən buna görə minnətdaram”.

Bəli, Azərbaycanın və Pakistanın bir-birinə dəstəyi ilə bağlı bir çox məqamların üzərində dayanmaq mümkündür. Ümumi mənzərə isə budur ki, ölkələrimiz ən müxtəlif sahələrdə əməkdaşlığa imza atdıqları kimi, beynəlxalq platformalarda eyni maraqlara söykənərək, öz fəaliyyətlərini koordinasiya edir, bir-birini qeyd-şərtsiz dəstəkləyirlər. Hesab edirik ki, Prezident İlham Əliyevin Pakistana dövlət səfəri və bu zaman əldə olunmuş razılaşmalar, eləcə də dostluq və qardaşlıq jestlərinin ifadə səhnələri dəstək nümunələrini, strateji tərəfdaşlıq motivlərini daha da zənginləşdirəcək və fundamentallaşdıracaqdır. Yaşasın Azərbaycan və Pakistan dostluğu və qardaşlığı!

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Sabitlik davamlı, asayiş təminatlıdır

## *6 ayda törədilmiş cinayətlərin 90,7 faizi açılıb*

**İyulun 12-də Daxili İşlər Nazirliyində (DİN) 2024-cü ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, iclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov bu ilin birinci yarısında cinayətkarlıqla mübarizədə müsbət nəticələrin əldə edildiyini, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə asayişin və təhlükəsizliyin etibarlı təmin olunduğunu, eyni zamanda, qarşıda mühüm vəzifələrin durduğunu və onların ətraflı müzakirəsinin, xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün əlavə təşkilati tədbirlərin müəyyən edilib həyata keçirilməsinin vacibliyini nəzərə çatdırıb.

İclasın gündəliyinə uyğun olaraq hesabat məruzəsi və məruzəətrafı çıxışlar dinlənilib.

Qeyd olunub ki, ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 18 min 518 cinayət qeydə alınıb, onların 94,5 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olub. 2023-cü ilin analoji dövrü ilə müqayisədə ağır və xüsusilə ağır cinayətlər 21,7, mülkiyyət əleyhinə olanlar 11,4, oğurluqlar 38,9, quldurluqlar 10,3, soyğunçuluqlar 41,3, yetkinlik yaşına çatmayanların cinayətləri 27,4, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlər 3,9 faiz azalıb.

Həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə cinayətlərin 90,7 faizi, o cümlədən prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 246, görülmüş operativ cavab tədbirləri ilə 2 min 314 cinayət açılıb, 4 min 407 hüquqazidd əməlin qarşısı alınıb, axtarışda olan təqsirləndirilən şəxslərin 79 faizi tutulub, 5 min 53 ədəd müxtəlif növ atıcı silah yığılıb və tapılıb.



Mütəşəkkil cinayətkarlıqla mübarizə tədbirləri çərçivəsində 356, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 119 kriminal qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 179 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Qeyri-leqal dövriyyədən 2 ton 844 kiloqram narkotik vasitə çıxarılıb və 296 tondan artıq narkotik xassəli bitki aşkarlanaraq məhv edilib.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində mühüm vəzifələrin icrasının davamlı nəzarətdə olduğu, bu baxımdan mediada qabaqcadan məlumat verilməklə 2 min 764 şəxsin qəbul edildiyi və qaldırılan məsələlərin əksəriyyətinin öz qanuni həllini tapdığı vurğulanıb.

Kollegiya iclasına yekun vuran nazir Vilayət Eyvazov cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində əldə olunmuş müsbət nəticələrin hesabat dövründə inkişaf etdirildiyini qeyd edib, eyni zamanda, profilaktik tədbirlərin, kadr hazırlığı işinin, təhsil və təlim prosesinin təkmilləşdirilməsinin zəruriliyinə diqqət çəkərək müvafiq tapşırıqlar verib.

Vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu vurğulayaraq cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

Narkotiklərlə mübarizənin vəziyyətinə də toxunaraq son illər müvafiq sahədə əldə olunmuş müsbət nəticələrdə vətəndaşların fəal rolunu və mövqeyini yüksək qiymətləndirib, habelə polis-vətəndaş münasibətlərinin effektivliyinin, özünü, daha çox mütəşəkkil qrup və dəstələr tərəfindən törədilən cinayətlərin azalmasında, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyədən çıxarılmasının artım tempində göstərməsindən, xüsusən vətəndaşların günbəgün artan köməkliklərindən məmnunluq ifadə edib.

İnsan haqlarının müdafiəsinə xidmət edən və cəmiyyətə fayda gətirən bu münasibətdən daha böyük gözləntilərin olduğunu vurğulayan nazir davamlı dəstəyə görə hər bir vətəndaşa təşəkkürünü bildirib, eləcə də qarşılıqlı əlaqələrin cəmiyyətdə sabitliyin və təhlükəsizliyin qorunub saxlanılması naminə inkişaf etdirilməsi üzrə polisin konkret vəzifələrini müəyyən edib.

Həmçinin yeniyetmə və gənclərin hüquqazidd hərəkətlərinin qarşısının alınması üzrə qabaqlayıcı tədbirlərin müsbət nəticələr verdiyini və onların hüquqazidd əməllərinin dinamikasında nəzərəçarpan azalmanın qeydə alındığını bildirərək dövlətin gələcəyi olan gənclərin bəzi sosial şəbəkə seqmentlərində yayımlanan zərərli informasiyaların təsiri altına düşməməsi, sağlamlığa ziyanlı vərdişlərdən çəkindirilməsi istiqamətində aparılan işlərin səmərəsinin artırılmasını tələb edib.

Ölkədə aparılan antinarkotik təbliğatın gücləndirilməsini, əməliyyat-xidməti fəaliyyətin narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulmasını, respublikanın təhsil müəssisələrində həyata keçirilən maarifləndirmə və təbliğat tədbirlərində iştirak edən dövlət qurumlarının mütəxəssislərinin, yüksəkixtisaslı pedaqoqların, ictimaiyyətin tanınmış nümayəndələrinin tərkibinin genişləndirilməsini, məktəblərdən, valideynlərdən gələn hər bir aidiyyəti siqnala çevik reaksiya verilməsini tapşırıb.

Çıxışında gənclərin Polis Akademiyasında təhsilə təşviq edilməsi sahəsində son bir neçə ildə tətbiq olunan yenilikləri, xüsusən Elm və Təhsil Nazirliyi ilə birgə yaradılmış işçi qrupun fəaliyyətini dəyərləndirən nazir dövlət səviyyəsində keçirilən imtahanlarda yüksək nəticələr göstərən, polis peşəsini sevən və fiziki hazırlıqlı abituriyentlərin hər tədris dövründə artdığını, bu işin müasir polis əməkdaşının hazırlanmasında əhəmiyyətli rolunu təqdir edib, müvafiq tədbirlərin sistemli və əlaqəli davam etdirilməsi üçün nazirliyin aidiyyəti qurumlarına lazımi göstərişlər verib.

Prokurorluq orqanları ilə sıx qarşılıqlı əlaqədə həyata keçirilən tədbirlərin də önəmli nəticələr verdiyini, vətəndaşların qanuni mənafelərinin qorunmasına və qanunçuluğun möhkəmlənməsinə xidmət etdiyini, o cümlədən cinayətlərin, onların ağır və xüsusilə ağır növlərinin azaldığını, açılması və istintaqı sahəsində əhəmiyyətli irəliləyişlərin əldə olunduğunu vurğulayıb.

Eyni zamanda, əvvəllər məhkum olunmuş şəxslər və qrup halında törədilən cinayətlərin azalmasına diqqət çəkərək bu sahədə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə birgə görülən işlərin səmərəli nəticələrini yüksək qiymətləndirib.

Yekunda general-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi diqqətə, fəaliyyətinə verdiyi böyük dəyərə və etimada görə Prezident İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada ictimai asayişin mühafizəsi, vətəndaşların qanuni mənafelərinin və hüquq qaydasının qorunması sahəsində vəzifələr tam və layiqincə yerinə yetiriləcək.

***XQ***

# Monolit “üçlük”, məsud qardaşlıq

## Dünya Azərbaycan, Türkiyə və Pakistanın hilallı-ulduzlu birliyinə heyran qalıb



**İki gün bundan əvvəl İslamabadın küçələri Azərbaycan Bayrağının rənglərində işıqlandırılmışdı. Bundan başqa, Pakistan paytaxtı başdan-başa bu ölkəyə dövlət səfərinə gələn Azərbaycan Prezidenti İlham Əliyevin fotoları ilə bəzədilmişdi. Burada gözlənilməz, təsadüfi nəsə axtarmağa dəyməz. Azərbaycan lideri özünə doğma bildiyi Pakistan torpağına qədəm qoyurdu. Protokol qaydalarına görə, adətən, yüksək qonağı yerli hökumətin böyük çinli məmuru da qarşılaya bilərdi. Amma bu qayda bayraqlarında hilal və ulduzun bərq vurduğu ölkə başçılarının məsud qardaşlıq münasibətlərindən xeyli aşağıdadır. Bu dəfə qardaşının pişvazına qardaş özü çıxdı. Axı o gün Baş nazir Məhəmməd Şahbaz Şərif öz evində qalib xalqın müzəffər sərkərdəsini qarşılayırdı!**

### Fatehlərə yaraşan qarşılanma

Prezident İlham Əliyevin İslamabadda qarşılanma mərasimi özünün qeyri-adiliyi ilə hamının diqqətini çəkib. Həmin mərasimin möhtəşəmliyini iki kəlmə ilə ifadə etməli olsaq, belə yaza bilərik: Qürur və iftixar! Doğrudan da, iki gün bundan əvvəl biz qardaş xalqları qürurlandıran, onlara ən səmimi hissləri yaşadan, fəxarət bəxş edən qarşılanmaya şahidlik etdik.

İlham Əliyevin təyyarəsini İslamabad səmasında müşayiət etməkdən ötrü eyni vaxtda 6 qırıcının səmaya qaldırılması Pakistan rəhbərliyinin dövlət başçımıza olan, sadəcə, hörmət və ehtiram əlaməti, qardaşın qardaşa iltifatı deyildi. Dövlət səfərlərində nadir hallarda müşahidə olunan bu jest həm də qədim Şərq ənənəsinin XXI əsrdə nümayişi idi. Bu jestin sıradan bir ölkənin deyil, nüvə dövlətinin başçısı tərəfindən edilməsi isə hadisəyə xüsusi rəng və siyasi çalar qatırdı.

Tarix kitablarından oxuduğumuz həqiqətdir ki, toplardan yaylım atəşi ilə qarşılanma yalnız hərbi yürüşlərdə və Vətən uğrunda döyüşlərdə zəfər qazandıqdan sonra yurduna dönən fatehlərin şərəfinə icra edilib. Bizimlə bərabər beynəlxalq ictimaiyyət İslamabadda bunun da şahidi oldu. Əlbəttə ki, belə möhtəşəm qarşılanma törəni Pakistanın Azərbaycana verdiyi önəmlə yanaşı, dünyaya birlik, qardaşlıq mesajının çatdırılmasına xidmət edirdi.

### Dəyərin görünməyən miqyası

Hər şey qarşılıqlıdır. Vətən müharibəsində mənəvi-siyasi baxımdan qardaş Türkiyə ilə bərabər yanımızda duran Pakistan Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə daim dəstək vermiş, torpaqlarımızı işğaldan azad etməyimizə bizim qədər sevinmişdi. Bu, sözlə ifadəsi mümkün olmayan misilsiz dəyərdir! “Bizim qardaşlığımız xalqlarımızın əsrlərlə bundan əvvələ təsadüf edən, bir-birinə olan dərin hisslərinə əsaslanır”. Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri iyulun 11-də İslamabadda mətbuata bəyanatında deyib. Dövlətimizin başçısı Azərbaycan və Pakistan arasında əməkdaşlığın, demək olar ki, bütün sahələrini əhatə edən 15 sənədin imzalandığı görüşdən sonra mətbuat üçün verdiyi açıqlamada bu tərəfdaşlığın bünövrəsində iki xalqın bir-birinə qarşı qardaşlıq münasibətlərinin dayandığını bildirib. “Bizim qardaşlığımız xalqlarımızın əsrlərlə bundan əvvələ təsadüf edən, bir-birinə olan dərin hisslərinə əsaslanır. Azərbaycana gələn pakistanlıların sayı son illər ərzində daha da artıb. Pakistandan gələn insanlar İçərişəhəri ziyarət edəndə və Karvansaranı görəndə onu “Multan” adlandırırlar. Biz qardaşıq və dostuq. 2020-ci ilin noyabrında Qələbəmizi qeyd etdiyimiz zaman xalqımızın əllərində Azərbaycan, Pakistan və Türkiyənin bayraqları var idi”. Bəli, Zəfər günü paytaxt Bakının küçələrində, avtomobillərin aynalarında, insanların əllərinə üç bayraq dalğalanırdı. Pakistanlı gənclərin bizimkilərlə qol-qola “yallı” getməsi səhnələri hələ də gözümüzün qabağındadır.

Azərbaycanla Pakistanın əlaqələrinin dərin tarixi köklərə, hər iki xalqın eyni dəyərlərə malik olması birlik və həmrəyliyi daha da möhkəmləndirir. Yeri gəlmişkən, bu iki xalqın çətin günlərdə bir-birnə dayaq durmasına aid konkret misal. Üstündən yüz ildən çox ötmüş həmin hadisə böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin adı ilə bağlıdır. XX əsrin əvvəllərində, Pakistan ərazisi hələ Böyük Britaniyanın yurisdiksiyasında olanda yerli əhali arasında yoluxucu xəstəlik, virus yayılmışdı. Pakistanlılar bu xəstəlikdən kütləvi şəkildə dünyasını dəyişirdilər. O vaxt H.Z.Tağıyev şəxsi vəsaiti hesabına 300 min peyvənd alıb Pakistana göndərir. Bununla da pandemiyanın qarşısı alınır. Qədirbilən Pakistan xalqı həmin yaxşılığı bu gün də unutmur.

### Avrasiyanın “Üçlər ittifaqı”

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycan Prezidenti İlham Əliyevə xitabən qardaş səmimiliyi ilə söylədiyi bu sözləri isə dünya mediasında yer alıb: “Siz öz dəyərli vaxtınızı sərf edərək qardaş ölkəyə səfər edirsiniz. Buraya eniş etdikdən bəri Pakistan xalqı Sizi televiziya ekranlarında və sosial mediyada görməkdən çox məmnundur. Ona görə məmnundur ki, səmimi dost və həqiqi qardaş öz qardaş ölkəsini ziyarət edir“.

Cari ilin noyabrında Azərbaycanın evsahibliyi edəcəyi beynəlxalq COP29 tədbirinə dəvət olunduğunu məmnunluqla dilə gətirən cənab Məhəmməd Şahbaz Şərifin Bakıya səfəri zamanı yaşadığı hissləri yada salaq: “Səxavətiniz və çox səmimi qonaqpərvərliynizlə bağlı o xoş anları hələ də xatırlayıram. Nahar zamanı ləziz yeməyiniz hələ də xatirimdədir. Kaş onun dadına bir də baxa bilərdim. Amma bunun üçün Sizin möhtəşəm ölkənizi yenə də ziyarət etməliyəm. İnşallah, noyabr ayında gələcəyəm”.

Mətbuata rəsmi bəyanatın protokol sərhədlərini aşan bu açıqlaması ilə Pakistan Baş naziri həm də bütün səfər boyu dövlətimizin başçısına içdən gələn səmimi münasibətini dəfələrlə nümayiş etdirdi. Azərbaycan, Türkiyə və Pakistan! İndi dünya bizim əsrlər boyu bir-birimizə necə bağlı olduğumuzu anlayır. Həqiqətən, bu bağlantı böyük sərvətdir. Artıq birmənalı şəkildə deyə bilərik ki, Azərbaycan və Pakistan münasibətləri təkcə iki qardaş ölkənin deyil, bütövlükdə, Avrasiya qitəsinin gələcəyi üçün böyük əhəmiyyətə malikdir. Çünki hazırda planetin yeni təhlükəsizlik arxitekturasının qurulması məsələsi məhz Avrasiyada müzakirə edilir. Bu yeni dönəmdə müxtəlif ölkələr arasında rəsmi, eləcə də qeyri-rəsmi ittifaqların yaranması da təsadüfi sayılmamalıdır. Türkiyə–Azərbaycan–Pakistanın timsalında görünən “Üçlər ittifaqı” isə həm hər üç ölkənin milli maraqlarının birgə müdafiəsi, həm də Avrasiyanın təhlükəsizlik sistemində güc mərkəzinə çevrilmək baxımından perspektivli alyans hesab olunur. Ankara, Bakı və İslamabadın bu istiqamətdə qarşılıqlı faydalı əməkdaşlıq qurmaları üçün heç bir maneə görünmür. Prezident İlham Əliyevin İslamabada dövlət səfəri həm də bu kontekstdə önəm daşıyır.

### Pakistanlı Türk dünyasının dirçəliş dövrü

Bunu bir daha qeyd etməyi vacib sayırıq ki, 44 günlük Vətən müharibəsi dönəmində, eləcə də ondan sonrakı müddətdə qardaş Pakistan xalqı və hakimiyyəti daim Azərbaycanın yanında oldu. İslamabad özünün siyasi və mənəvi dəstəyini Bakıdan əsirgəmədi. Azərbaycan xalqı Pakistan xalqının bu dəstəyini yüksək qiymətləndirir və heç zaman unutmayacaq. Qəti şübhə etmirik ki, dərin tarixi köklərə malik, uğurlu gələcəyə hesablanmış Azərbaycan–Türkiyə–Pakistan münasibətləri, dostluğumuz və qardaşlığımız bundan sonra yalnız yüksələn xətt üzrə inkişaf edəcək. Bu, uzaq perspektivin yox, yaxın gələcəyin layihəsidir. Reallıqda həmin layihə “de-fakto” baş verib, qalıb onun “de-yure” kimi sənədləşməsi. Yəni, asiyalı Pakistanın da avropalı Macarıstan kimi Türk dünyasının bir parçasına çevrilməsi heç də uzaqda deyil. Bu nüvə dövlətinin TDT-yə daxil olandan sonra təşkilatın əhatə edəcəyi coğrafiyanı təsəvvürünüzə gətirin. Türk dünyasının, Turanın nə boyda ola biləcəyini düşünün! Ən önəmlisi isə qardaşların hərbi alyansı nüvə silahına sahib Pakistanın gəlişi ilə daha böyük gücə çevriləcək, fərqli məna kəsb edəcək. Və tezliklə bu birliyin əzəmətinə bütün dünya heyran qalacaq. Bu, artıq tamamilə yeni bir tarixi mərhələnin, həm də olduqca şərəfli bir səhifənin başlanması anlamına gəlir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycanda milli intibahın başlanğıcı

**İyulun 14-də ümummilli lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəlişinin 55 illiyi tamam olur. Sovet İttifaqı tərkibində xalqımızın milli intibahına başlanğıc olmuş bu tarixi gün sonrakı möhtəşəm gedişatla ölkəmizi 22 il sonrakı dövlət müstəqilliyinin bərpasına yönləndirib və suverenlik epoxasının zəruri əsaslarını hazırlayıb. Bugünlərdə şəhər və rayonlarımızda, ayrı-ayrı qurumlarda keçirilən çoxsaylı toplantılarda Ulu öndəri Azərbaycanın siyasi hakimiyyət sükanı arxasına gətirmiş günün tarixi önəmi və taleyüklü uğurların qazanmasına başlanğıc olması qədirbilənliklə qeyd olunur.**

### Naxçıvan

**Dünən ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 55-ci ildönümü münasibətilə Naxçıvanda “14 iyul 1969-cu il: Azərbaycanda milli intibahın başlanğıcı” adlı konfrans keçirilib.**



Əvvəlcə Heydər Əliyev Sarayının foyesində təşkil olunan sərgiyə baxış olub. Ekspozisiyada Ümummilli liderin Naxçıvan səfərlərinin yaddaqalan məqamlarını, muxtar respublika sakinləri ilə səmimi görüşlərini və mətbuatda çıxışlarını əks etdirən fotolar nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konfransda çıxış edərək qeyd edib ki, dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir.

Səlahiyyətli nümayəndə bildirib ki, Əliyev siyasətinin fəlsəfi kökündə milli təfəkkür, milli şüur, milli düşüncə, azərbaycançılıq məfkurəsi dayanıb.

Konfrans Naxçıvan Televiziyasının təqdim etdiyi “14 iyul Zirvəsi” adlı sənədli filmin nümayişi ilə başa çatıb.

### Ağstafa

**“14 iyul 1969-cu il: Tərəqqi yolunun başlanğıcı, müstəqil və qüdrətli Azərbaycan dövlətinin təməlinin qoyulduğu gün” mövzusunda rayonda keçirilən toplantıda ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə geniş nəzər salınıb, bu tarixi hadisənin önəmi vurğulanıb.**

Mərasimi giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Seymur Orucov bildirib ki, Azərbaycanın bugünkü uğurlarının başlanğıc nöqtəsi olan 14 iyul 1969-cu ildə Ulu öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəlişi ölkəmizdə hərtərəfli tərəqqinin birinci mərhələsi, xalqın özünəqayıdış tarixidir. Azərbaycançılıq ideologiyasının təbliği, inkişaf etdirilməsi məhz o dövrdən başlanıb və ölkəmizin bu gününün möhkəm təməli qoyulub.

Bildirilib ki, Heydər Əliyev irsinin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bugünkü qüdrətli Azərbaycanı yaradaraq Ümummilli liderin bütün arzularını reallığa çevirdi. Bu gün Ümummilli liderin ruhu şaddır.

Çıxış edənlər Ulu öndərin zəngin və mənalı həyatından, Vətən, xalq qarşısında misilsiz xidmətlərindən bəhs ediblər. Nümayiş etdirilən videoxronikada tarixi intibahın mənzərəsi əks olunub.



### Beyləqan

**İyulun 12-də Beyləqan Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlişinin 55-ci ildönümü münasibətilə “14 iyul 1969-cu il: Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün” adlı tədbir keçirilib.**



ötən əsrin 60-cı illərində Azərbaycanda durğunluq hökm sürürdü, respublika iqtisadi göstəricilərinə görə, ittifaq miqyasında sonuncu yerlərdən birində idi. Bu acınacaqlı vəziyyətə 1969-cu il iyulun 14-də keçirilmiş plenumda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra son qoyulub. Beləliklə, 1969-1982-ci illər Azərbaycan tarixinə intibah dövrü kimi daxil olub.

Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri Arif Rəhimzadə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq dövrü respublikamızın inkişaf və tərəqqi illəri kimi səciyyələndirib. AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev diqqətə çatdırıb ki, Ulu öndərin hakimiyyətinin birinci mərhələsində Azərbaycanı geridə qalmış aqrar ölkədən inkişaf etmiş aqrar-sənaye ölkəsinə çevirib. Heydər

Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov bildirib ki, 1969-cu il 14 iyul tarixinin Azərbaycanın yeni tarixində müstəsna özəlliyi var. Məhz həmin tarixdən başlayaraq respublika həyatının bütün sahələri köklü islahat və sürətli inkişaf yoluna qədəm qoyub. Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi illərdə gələcək müstəqil dövlətin iqtisadi qüdrətinin təməli qoyulub, respublika inkişaf tempinə görə keçmiş ittifaq miqyasında öncül sıralara çıxıb.

Şəhid anası Kəmalə xanım, Vətən müharibəsi qazisi Qiyas Məmmədli və Ağsaqqallar Şurasının sədri Etibar İmanov da çıxış edərək bildiriblər ki, Ulu öndər siyasi fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi ilə yaşayıb, hər zaman milli dəyərlərə bağlı olub.

**XQ**

# Milli Məclis Sədri Sankt-Peterburqda



**Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri çərçivəsində Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova və Efiopiya Federal Şurasının spikeri Aqeqnehu Teşager ilə görüşlər keçirib.**

Respublika Şurasının sədri Natalya Koçanova ilə görüşdə Azərbaycan və Belarus arasında dostluq prinsiplərinə əsaslanan tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub. Tərəflər ölkələrimiz arasında münasibətlərin hazırkı inkişafında iki ölkənin dövlət başçıları arasında yüksək səviyyəli münasibətlərin mühüm rolu qeyd edilib. Bu görüşlərin, həmçinin son dövrlərdə Azərbaycan və Belarus arasında yüksək səviyyəli qarşılıqlı səfərlərin intensivləşdiyi, imzalanan sənədlərin əlaqələrin daha da dərinləşməsini təmin etdiyi diqqətə çatdırılıb.

Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə daha da inkişafının əhəmiyyəti vurğulanıb və bu istiqamətlərdə mövcud imkanlarla bağlı fikir mübadiləsi aparılıb. Azərbaycan və Belarus parlamentlərinin əlaqələrin həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığından məmnunluq ifadə edilib. S.Qafarova özünün ötən ay Belarus Respublikasına rəsmi səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırlayıb.

Efiopiya Federal Şurasının spikeri Aqeqnehu Teşager ilə görüşdə də iki ölkə arasındakı əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivləri ilə bağlı müzakirələr aparılıb, bir sıra sahələrdə əməkdaşlıq imkanlarının olduğu bildirilib. Eyni zamanda, iki ölkənin parlamentlərinin müxtəlif beynəlxalq təşkilatlarda birgə fəaliyyət göstərdiyi vurğulanıb.

Spiker Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti barədə məlumat verib və Efiopiyanın təşkilatın konfransında iştirakını xatırladılıb. Bununla yanaşı, qanunverici orqanlarda dostluq qruplarının fəaliyyət göstərdiyi, qruplar arasında qarşılıqlı səfərlərin həyata keçirilməsinin əhəmiyyəti bildirilib.

Efiopiya Federal Şurasının sədri Azərbaycanın Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində fəaliyyətini yüksək qiymətləndirərək, ölkəmizin hərəkata sədrliyi dövründə irəli sürdüyü təşəbbüsləri təqdir edib.

Görüşlərdə bu ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 haqqında da söhbət açılıb. S. Qafarova COP29 çərçivəsində Milli Məclisin Parlamentlərarası İttifaq ilə birlikdə təşkil edəcəyi Parlament konfransı haqqında da məlumat verib.

***Ə.BƏDƏLOV***
***XQ***



# Milli Məclisə seçkilərə 49 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



**Məzahir Pənahovun sədrliyi ilə iyulun 12-də Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən bildirilib ki, əvvəlcə MSK-nın 9 iyul 2024-cü il tarixli iclas protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azad Vətən Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Yeni Zaman Partiyası, Haqq Ədalət Partiyası və Ağ Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Sözügedən hər bir siyasi partiyanın MSK-ya müvafiq müraciəti barədə Komissiya üzvləri məlumatlandırılıb və siyasi partiyalar tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verilib.

İclasda daha sonra bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

Xarici qurum və media subyektlərinin nümayəndələrinin iştirak etdiyi iclasın sonunda cari məsələlərə də baxılıb.

## MSK-da deputatlığa namizədlərin qeydiyyatı prosesinə həsr olunan seminar



**Mərkəzi Seçki Komissiyası (MSK) 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar fərqli statuslu seçki iştirakçıları üçün müxtəlif istiqamətlər üzrə intensiv maarifləndirmə layihələrini davam etdirir.**

MSK-nın maarifləndirmə proqramı əsasında iyulun 12-də növbəti tədbir - Milli Məclisə seçkilər zamanı deputatlığa namizədlərin qeydiyyatı prosesinə həsr olunan seminar keçirilib.

Tədbir MSK sədrinin müavini Rövzət Qasımovun çıxışı ilə başlayıb. Sonra gündəliyə uyğun olaraq, Komissiya üzvlərinin Milli Məclisə seçkilərdə deputatlığa namizədliyin irəli sürülməsi və qeydə alınması ilə bağlı qanunvericiliyin tələbləri, namizəd irəli sürmək hüququna malik subyektlər, namizədlərin müdafiəsi üçün seçici imzalarının toplanması şərtləri və qaydası, habelə imza vərəqələrində və namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının təqdim etdikləri sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması və namizədin qeydə alınmasının əsaslarına dair təqdimatları dinlənilib.

Əyani vəsaitlərdən istifadə edilməklə keçirilən təqdimatlarda mövzular barədə ətraflı məlumat verilib, tədbirin praktik hissəsində geniş müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Seminar zamanı hər bir iştirakçıya tanışlıq məqsədilə MSK-nın deputatlığa namizədlər üçün hazırladığı yaddaş kitabçası təqdim olunub.

Media subyektlərinin nümayəndələri tərəfindən geniş işıqlandırılan seminarda deputatlığa namizədliyin qeydə alınması üçün təqdim edilən imza vərəqələrində və onlara əlavə edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə 125 seçki dairəsi üzrə dairə seçki komissiyalarının hər birinin nəzdində yaradılan işçi qrupunun rəhbəri iştirak edib.

Qeyd etmək lazımdır ki, mühüm maarifləndirmə layihələrindən olan bu tədbir Milli Məclisə seçkilərdə deputatlığa namizədliyin irəli sürülməsi və qeydə alınması ilə bağlı dairə seçki komissiyalarının məlumatının artırılması, onların bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənib.

# Mükəmməl qanunvericilik bazası və zəngin təcrübə

**Prezident İlham Əliyevin Milli Məclisə növbədənkənar parlament seçkilərinin keçirilməsi haqqında sərəncamı dərc edilən gündən seçkilərinin keçirilməsinə ciddi hazırlıq işlərinə başlanılıb. Ötən seçkilərdə olduğu kimi, növbədənkənar parlament seçkilərinin də beynəlxalq standartlara uyğun keçirilməsi üçün mükəmməl qanunvericilik bazamız, zəngin təcrübəmiz var. Ölkəmiz şəffaf, ədalətli, demokrtaik seçki keçirməyə qadir olduğunu bir daha təsdiqləyəcək.**

Növbədənkənar paralment seçkilərinə hazırlıq işləri geniş vüsət alıb. Deputat mandatı qazanmaq uğrunda mübarizə gündən-günə genişlənir. 17 saylı Yasamal III dairə seçki komissiyasının sədri Qədir Kərimovla söhbətimiz seçkilərə hazırlıqla əlaqədar oldu.

Hazırda seçki prosesinin ən gərgin vaxtlarından biridir. Artıq namizədlərin rəsmən irəli sürülməsinə start verilib: "Namizədliyin qeydə alınması üçün sənədlərin təqdim olunması iyulun 13-də başlayır və avqustun 2-də saat 18:00-da isə başa çatır. Namizədliyi irəli sürmək ayrı, qeydə alınması başqa prosedurdur. Hər bir kəsə namizədliyini irəli sürmək üçün əlverişli şərait yaradılıb. Vətəndaşlarımız heç bir problemlə üzləşmədən öz namizədliklərini irəli sürə bilərlər. Namizədliyini irəli sürmək istəyən şəxs müvafiq dairə seçki komissiyasına yaxınlaşaraq hazır formanı doldurur. Doldurulmuş formaya 5 gün ərzində baxılır. Qərar verilir ki, bu şəxs deputatlığa namizədliyini irəli sürə bilər, ya yox. Bütün bunlar barəsində həmin şəxslərə ətraflı məlumat verilir".

Sənədlər yoxlanıldıqdan sonra namizədliyi təsdiqlənən şəxslərə imza vərəqələri verilməsi barədə qərar qəbul edilir. Qanunvericiklə tələb olunan imza toplanıldıqdan sonra isə müvafiq seçki sənədləri dairə seçki komissiyasına təqdim olunur. İmza vərəqələri və seçki sənədlərinin təqdim edilməsi üçün müddət avqustun 2-də başa çatır. Namizədin qeydə alınması başa çatdıqdan sonra isə avqustun 9- da seçkiqabağı təşviqatın aparılması başlanır və avqustun 31-i saat 08:00-da dayandırılır. Bununla bağlı Mərkəzi Seçki Komissiyası tərəfindən "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"nın 1, 2, 15, 27 və digər bəndlərində ətraflı məlumat var. Yeri gəlmişkən, məlumat üçün qeyd edim ki, Seçki Məcələsi və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi normativ aktlar əsasında hazırlanmış "Namizədlər üçün yaddaş" kitabçası bugünlərdə komissiya üzvlərinin ixtiyarına verilib. Belə yaddaş kitabçaları məntəqə seçki komissiyalarının köməyinə çatır.



**– Qədir müəllim, bu prosedurlar həyata keçirilən zaman namizədliyini irəli sürmüş şəxslər hər hansı süni əngəllərlə qarşılaşırlarmı? Ümumiyyətlə, sizin seçki təcrübənizdə namizədliyi qeydə alınmayanlar sonradan iddia qaldırıblarmı?**

– Əgər kiminsə namizədliyi qeydə alınmayıbsa, təqsirkar həmin şəxsin özüdür. Çünki DSK-larda namzədliyini irəli sürən şəxslərin hər birinə "yaşıl işıq" yandırılıb. Bu sahədə heç kimə süni əngəl yaradılmayıb və yaradıla da bilməz. Bu işlər ciddi nəzarət altındadır. Hazırda 4 nəfər namizədliyini irəli sürmək üçün bizə müraciət edib. Təbii ki, bu rəqəm gündən-günə artacaq. Kim namizəd olmaq istəyirsə, buyursun, tələb olunan sənədləri ilə bərabər müraciət etsin. Lakin elələri də var ki, öz gücünə yaxşı bələddir. Özü də bilir ki, heç lazım olan sənədləri belə toplamağa qadir deyil. Sadəcə olaraq, nəyinsə xatirinə namizəd olmaq istəyir. Namzədliyinin qeydə alınması təsdiqlənməyəndə də yersiz hay-küy yaradır. Artıq son vaxtlar belə halların qarşısı tamamilə alınmaqdadır. Çünki namizədliyini irəli sürmək istəyənlərə kömək məqsədilə bəzi sənədlər DSK-larda hazır vəziyyətdədir. Sadəcə, onları doldurmaq, digərlərini də toplamaq lazımdır.

**– Rəhbərlik etdiyiniz dairə seçki komissiyasının əhatəsində olan məntəqə seçki komissiyalarında hazırlıq işləri necə gedir?**

– Bilirsiniz ki, biz seçkidən yeni ayrılmışıq. Mən bu ilin fevralında keçirilən növbədənkənar prezident seçkilərini nəzərdə tuturam. Komissiya üzvlərimiz yüksək əhval-ruhiyyədədirlər. Parlament seçkilərində 42 min 433 seçici 40 seçki məntəqəsində səs verəcək. Seçki məntəqələri bütün ləvazimatla təchiz olunub. Telefonlar, elektrik sistemi işlək vəziyyətdədir. Səsvermə qutuları seçki məntəqələrindədir. Hər bir seçki məntəqəsinin yaxınlığında namizədlərin təbliğat-təşviqat aparmaları üçün dəmir lövhələr quraşdırılıb. Son dəfə dəqiqləşdirilmiş seçici siyahılarının seçki məntəqələrinin müvafiq yerlərində yerləşdirilməsi də müəyyənləşdirilib. Aşağı seçki komissiyaları üçün bir daha maarifləndirmə tədbirləri aparılacaq. Maarifləndirmənin dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılmasında, seçkilər sahəsində onların bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsində rolu böyükdür. Bundan əlavə MSK tərəfindən mütəmadi hazırlanan təlimatlar da komissiya üzvlərinə paylanılacaq. Müşahidəçilər üçün də seçki prosesini rahat izləmək məqsədilə müvafiq yerlər müəyyənləşdirlib. İstəyirik ki, hər şey namizədlərin və müşahidəçilərin ürəyincə olsun. Seçki məntəqəsinin üzvlərinə də qəti olaraq tapşırılıb ki, seçicilərlə, müşahidəçilərlə və media nümayəndələri ilə son dərəcə nəzakətlə davransınlar. Biz dünyaya daha bir azad, ədalətli, şəffaf seçki nümayiş etdirməliyik.

**Əliqismət BƏDƏLOV**
**XQ**



## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 9 iyul tarixli iclas protokolunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 9 iyul tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

Lamiyə Fərhad qızı Əliyeva 16 saylı Yasamal ikinci, Tamilla Əsədulla qızı Abdullayeva 44 saylı Sumqayıt üçüncü, Aygün Fərhad qızı Musayeva 70 saylı Neftçala, Xatirə Dadaş qızı Şərifova 84 saylı Füzuli, Səbinə Məhərrəm qızı Həmidova 117 saylı Oğuz–Qəbələ–Şəki seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

# Şuşa Bəyannaməsindən Qarabağ Bəyannaməsinədək

## I məqalə

***Bu gün imzalanmış birgə bəyannamə – Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır... Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



Qısaca "Şuşa Bəyannaməsi" adlandırılan sənəd "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"dir. 2021-ci il iyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Şuşada imzalanmışdır. Bu sənəddə iki müstəqil dövlət "müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən" etmişlər. Yəni Şuşa Bəyannaməsi dəqiq məqsədi olan siyasi və hüquqi əsaslandırılmış, beynəlxalq hüquq normalarına tam uyğun olan rəsmi sənəddir. Həmin sənədlə Azərbaycanla Türkiyə müttəfiqlik münasibətlərinin konkret bəndlərini müəyyən etmiş və iki dövlət kimi strateji münasibətləri bu bəndlərə uyğun qurmaqdadırlar. Bu isə o deməkdir ki, Şuşa Bəyannaməsi müəyyən prinsiplərə, sənədlərə, öncədən aydınlaşdırımış siyasi və hüquqi şərtlərə əsaslanır. Bu sənədin yaranması tarixçəsi vardır. Həmin tarixçə həm də onun məzmun, mahiyyət və məqsədini müəyyən edir.

## Əsas məqsəd

Şuşa Bəyannaməsinin əsas məqsədi Azərbaycanla Türkiyə arasında iki müstəqil dövlət kimi strateji müttəfiqliyin siyasi və hüquqi çərçivələrini müəyyən edərək, onun həyata keçirilməsinə nail olmaqdan ibarətdir. İlk dəfədir ki, Azərbaycanla Türkiyə arasında rəsmi strateji müttəfiqlik sənədi imzalanmışdır. Bu prosesin təməlində tarixi gerçəkliklər, konkret sənədlər, iki ölkənin etnik birliyi və XXI əsrin geosiyasi gerçəkliklərinin ortaq dərki dayanır. Şuşa Bəyannaməsinin zəruriliyi II Qarabağ savaşında iki qardaş dövlətin əməkdaşlığı və Azərbaycanın möhtəşəm zəfər qazanması fonunda özünü aydın göstərirdi. Yəni həmin sənəd tarixi zərurətdən, geosiyasi gerçəkliklərdən, siyasi reallıqdan və hər iki dövlətin müstəqilliklərini əbədi etmək niyyətlərindən qaynaqlanmışdır. Bu prizmada Şuşa Bəyannaməsi həm də Azərbaycanla Türkiyənin iki müstəqil dövlət kimi interqasiyasının şərtlərini və siyasi-hüquqi sərhədlərini müəyyən edir. Sonrakı proseslər bu sənədin tarixi və siyasi baxımdan olduqca böyük əhəmiyyəti olan başqa bir özəlliyini (praktiki siyasi-diploamtik və geosiyasi aspektlərdə) üzə çıxardı. Bu barədə irəlidə bəhs ediləcəkdir.

## Baza sənədlər və prinsiplər

Şuşa Bəyannaməsində yazılmışıdr ki, tərəflər iki ölkə arasında imzalanmış "bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq"dirlər. Yəni Şuşa Bəyannaməsinin bazasında beynəlxalq sənəd statusunda XX əsrdə imzalanmış Qars müqaviləsi dayanır. Bu vurğunun tarixi və siyasi anlamı çox vacibdir. Çünki Azərbaycan və Türkiyə faktiki olaraq yüz il öncə mövcud olan reallıqlardan çıxış edərək və dövlət kimi siyasi varisliyə söykənərək, indiki mərhələdə münasibətlərini beynəlxalq normalara uyğun inkişaf etdirmək əzmindədirlər. Bu da həm onların köklü dövlətçilik ənənəsinə malik olduqlarını, həm də hər bir tarixi mərhələdə ləyaqətli dövlətlər kimi beynəlxalq hüquq prinsipləri çərçivəsində münasibətlər qurmaq üsulunu birmənalı qəbul etdiklərini göstərir.

Qars müqaviləsinə əsaslanaraq, Azərbaycanın müstəqillik əldə etməsindən sonra Türkiyə ilə imzaladığı 3 sənədə istinad edilmişdir. Onlar Şuşa Bəyannaməsində aşağıdakı kimi tədqim olunmuşlar: "9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutmuşlar.

Bununla Şuşa Bəyannaməsinin siyasi və hüquqi bazası tam əhatə olunmuşdur. İstinad edilən sənədlərdən görünür ki, Azərbaycan və Türkiyə son yüzildə məzmunlamış dövlətçilik ənənəsinə dayanaraq, "dostluq və hərtərəfli əməkdaşlığın inkişafı"na, "qarşılıqlı yardım"a və "strateji tərəfdaşlığa" üstünlük verərək strateji müttəfiqlik münasibətləri qurmağa istiqamətlənmişlər.

Sənədlərin məzmunundan aydın olur ki, məsələ ciddi tarixi, siyasi, geosiyasi, təhlükəsizlik, iqtisadi və s. faktorların XXI əsrin tələbləri çərçivəsində konkret məzmunlaşdırılaraq, uzun müddətdə iki müstəqil dövlətin münasibətlərinin qurulması ilə bağlıdır. Məqsəd, məzmun və reallaşma mexanizmləri hər hansı emosional və ya romantik şərtlərə deyil, əsaslı və müasir beynəlxalq hüquq normalarına uyğun müttəfiqlik nümunəsi yaratmaqdan söhbət gedir.

Lakin bu unikal müttəfiqlik nümunəsi vurğulanan məqamlarla məhdudlaşmır. Burada bütün dünya üçün əhəmiyyətli olan bir mənəvi faktor xüsusi qeyd edilir. O, sənəddə "iki dost və qardaş ölkə" ifadəsinin birbaşa siyasi-hüquqi kontekstdə mənalandırılması ilə bağlıdır. Beynəlxalq münasibətlər sistemi kontekstində bu özəllik, yeni sayılmalı olan bir məqamın Şuşa Bəyannaməsində təməl prinsiplərdən biri kimi əksini tapması deməkdir. İlk dəfədir ki, "dost və qardaş ölkə" ifadəsi beynəlxalq hüquq konteksti alır. Həmin kontekst "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılmasının iki ölkə və onların xalqlarının maraq və mənafelərinə xidmət" etməsi məqsədi ilə sıx bağlıdır. Burada önə çıxan məqam "dost və qardaşlığın" siyasi və hüquqi asepktlərdə humanitarlığa xidmət etməsidir.

Yəni qətiyyən hər hansı aqressiya, kimlərə qarşısa birləşmə və ya süni məqsədlər qarşıya qoymaqdan söhbət getmir. Azərbaycan və Türkiyənin siyasi-hüquqi aspektdə dostluğu və qardaşlığının təcəssümü xalqların marağına xidmət etməyə söykənir. Burada sətiraltı başqa bir məqsəd də ifadə edilmişdir: prinsipcə iki qardaş dövlət yeni keyfiyyətdə münasibətlər qurmaqda yalnız öz xalqları ilə məhdudlaşmaya bilərlər, digər xalqları da bu "dostluq və qardaşlıq" gerçəkliyinə cəlb etmək mümkündür! Bizcə, Şuşa Bəyannaməsində bu siyasi-hüquqi potensialın nəzərə alınması tarixi siyasi-diplomatik gedişdir! Bunun gerçək olduğunu sonrakı proseslər tam təsdiq etmişdir. Bu barədə də irəlidə bəhs ediləcəkdir.

## Srateji müttəfiqliyin ümumi müddəaları

Vurğuladığımız baza sənədlər və prinsiplər əsasında Şuşa Bəyannaməsində strateji müttəfiqliyin ümumi müddəalarının fəlsəfi xarakteristikasını vermək olar. Burada müttəfiqliyin sərhədi geniş təqdim olunmuşdur. Bəyannamədə yazılmışdır ki, "ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini dərk" edirik və "beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini" vurğulayırıq. Bu ümumi prinsiplər çərçivəsində strateji müttəfqilik "müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsini", "Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım"ı, "Türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərin regional və beynəlxalq müstəvilərdə irəli aparılmasını, "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi"ni əhatə edir.

## Strateji müttəfiqliyin fəlsəfəsi

Ümumilikdə Şuşa Bəyannaməsinin fəlsəfəsi mürəkkəb və genişdir. Ona görə də biz onu iki hissəyə bölürük. Birinci hissədə strateji müttəfiqliyin ümumi prinsipləri üçün ortaq olan məqamların fəlsəfi təhlilinə cəhd ediləcəkdir. Yuxarıdakı müddəalardan görünür ki, onlar cəm halında bir neçə məqamı sintez edirlər. Bu müttəfiqlikdə "qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsi" mühüm yer tutur və onlara nail olmaq üçün beynəlxalq hüquqa və BMT Nizamnaməsinə əsaslanır.

Məsələnin bu cür qoyuluşu tam müasirdir və humanitar mahiyyətlidir. Burada Avropada hazırlanmış "yeni regionalizm" təliminin baza prisniplərinə əməl etmək özünü göstərir. "Yeni regionalizm"də isə iki mühüm cəhət mövcuddur. Birincisi, regiondaxili dövlətlərin bir-biri ilə bərabərhüquqlu və konstruktiv münasibətlər qurması, ikincisi, həmin dövlətlərin "mehriban qonşuluq" siyasəti yeritməsi. Yəni yeni regionalizm region dövlətlərinin münasibətlərini qonşu regionlara proyeksiya etməsini də nəzərdə tutur. Bu da zəncirvari multiregional miqyasda multilateral əlaqələr qurmağa aparan mexanizmdir.

Burada müasir fəlsəfə və politologiya üçün yeni olan özəllik iki dost və qardaş dövlətin strateji müttəfiq və vahid güc kimi yeni regionalizmi həyata keçirməklə əlaqəlidir. İlk baxışdan sadə görünən bu xüsusiyyət reallıqda son dərəcə diqqətli, incə və koordinasiyalı fəaliyyəti tələb edir. "Ümumiyyətlə, iki dövlət necə vahid geosiyasi güc ola bilər?" sualına cavab Şuşa Bəyannaməsində öz cavabını tapır.

Fəlsəfi baxımdan belə bir mənzərə Şuşa Bəyannaməsinin Azərbaycan – Türkiyə müttəfiqliyinin regional və multiregional miqyaslarda "vahid sinerji" kimi öz təsdiqini tapmasını ifadə etməkdədir. İki müstəqil dövlətin bu cür geniş və mürəkkəb bir məkanda "vahid sinerji" keyfiyyətində fəaliyyət göstərə bilməsi yalnız nəzəri deyil, daha çox praktiki səmərə nümunəsi kimi özünü sübut etməlidir. Bunun üçün isə həmin sinerjini yarada biləcək ortaq istiqamətverici, müəyyənedici və məzmunlaşdırıcı ideoloji xarakterli prinsip olmalıdır. Şuşa Bəyannaməsində, bu, açıq ifadə edilmişdir.

Orada yazılır: Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirilir". Bu milli-mənəvi sərvətlər ulu öndər Heydər Əliyev tərəfindən siyasi məzmunlaşdırılmış və funksionallaşdırılmışdır. Onun fəlsəfi və politoloji xarakterinin substantiv və funksional aspektləri "Bir millər, iki dövlət" kəlamında fəlsəfi məzmun almışdır. Bununla həmin kəlam Azərbaycan–Türkiyə strateji müttəfiqliyinin baza prinsipi kimi qəbul edilməlidir.

"Bir millər, iki dövlət" kəlamının Azərbaycanda müstəqil dövlət quruculuğunun ümumi sinerjisi keyfiyyətindən iki müstəqil türk dövlətninin strateji müttəfiqliyinin "vahid sinerji"sinə proyeksiyası tarixi olaydır. Çünki, həmin müttəfiqliyin mənəvi və ideoloji təməlinə, bir tərəfdən, tarixin sınağından keçmiş və konkret siyasi məzmun almış güclü bir tezis qoyulur, digər tərəfdən isə həmin sinerjinin öncə regional, sonra isə multiregional miqyasa transformasiyası potensialı saxlanılır. İndi müşahidə edilən proseslər göstərir ki, Azərbaycan–Türkiyə strateji müttəfiqliyi Cənubi Qafqazda konstruktiv sabit geosiyasi mühiti təmin etməklə yanaşı, multiregional miqyasda Qoşulmama Hərəkatı və Türk Dövlətləri təşkilatında inteqrativ prosesləri stimullaşdırır. Biz bir qədər irəli gedərək bu fikri ona görə vurğulayırıq ki, mücərrəd (elə ümumi ifadə ki, konkret hansı məzmuna malik olduğu çətin qavranılır) görünən fəlsəfi izahımızın konkret məzmuna malik olduğu aydın görünsün. Əlbəttə, irəlidə bu məqamı da Qarabağ Bəyannaməsi kontekstində geniş təhlil etməyə çalışacağıq.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Replika**

# Makronun olimpiya "marafonu"

**Daxildə və xaricdə uğursuzluq zolağından çıxa bilməyən Emmanuel Makron, deyəsən, başına gələnlərdən nəticə çıxarmaq əvəzinə, daha da azğınlaşmaq, "təqsirkarlardan" qisas almaq yolunu tutub. Yeni müstəmləkələr ələ keçirmək cəhdləri, Cənubi Qafqazda odu öləziməkdə olan münaqişəni körükləmək səyləri alınmayan Yelisey sarayının müvəqqəti kirayənişini sonda xaricdəki casus şəbəkələrini gücləndirmək kimi faydasız üsula da əl atdı. Makron hakimiyyətinin konkret Azərbaycana qarşı yürütdüyü düşmənçilik siyasəti də onun bəd əməllərinin siyahısına yazılmalıdır.**

Nə bizə, nə də dünyaya sirr deyil ki, Fransa Azərbaycanla Ermənistan arasında sülh prosesinə maneçilik törədən əsas kənar oyunçudur. İndi "oyundankənar" vəziyyətə düşmüş rəsmi Paris bölgədə çirkin məqsədlərinə çatmaqdan ötrü yenə ermənilərdən istifadə etmək barədə düşünür. Artıq bu ölkənin özündə də etiraf edirlər ki, Emmanuel Makronun prezidentliyi Fransa tarixinin "qara səhifəsi" kimi hələ uzun illər yaddaşlardan silinməyəcək.

Bu gün siyasi nufuzunu və hörmətini tamamilə itirmiş Makron təkcə xaricdə deyil, daxildə də ciddi problemlərlə üzləşib. Məsələn, iyulun sonlarında başlayacaq planetin ən böyük beynəlxalq idman yarışlarına – Olimpiya Oyunlarına ev sahibliyi edəcək Paris, sadəcə, daxili siyasi gərginliyi aradan qaldırmağın deyil, həmçinin müvafiq strukturları bu oyunlara hazırlamağın sancısını yaşamaqdadır. Bu zaman Fransa paytaxtında bu il martın 22-də Moskvada törədilən terror aktının təkrarlana biləcəyi xofu da yaşanmaqdadır. Hökumət mümkün ehtimalı qabaqlayıcı tədbir kimi miqrantları paytaxtdan bölgələrə təxliyə etmək qərarına gəlib. İntəhası, axıradək düşünülməmiş bu addım əks-effekt verməyə başlayıb. Ölkənin digər böyük şəhərlərinin merləri Makron hökumətini Olimpiya Oyunları səbəbindən paytaxtı miqrantlardan "təmizləməkdə", regionları isə "çirkləndirməkdə" ittiham edirlər. Həmin şəhərlərin rəhbərləri açıq şəkildə bəyan edirlər ki, hakimiyyətin bu yarıtmaz siyasəti ölkənin digər şəhərlərinə çoxsaylı miqrant axının güclənməsinə gətirib çıxara bilər.

"The New York Times" yazır ki, Fransa hakimiyyəti Olimpiya Oyunları ərəfəsində bir neçə min evsiz mühaciri Parisdən qovub. Onları avtobuslara mindirib şəhərdən kənara aparıblar. Qəzetin qeyd etdiyi kimi, afrikalılar da daxil olmaqla, miqrantlara başqa yerlərdə mənzil vəd edilib. Amma onlar tanımadıqları əyalətlərdə küçələrə atılıb və indi də deportasiya ilə hədələnirlər.

"Makron hökuməti mühacir köçürülmələrinin Yay Olimpiadası ilə əlaqəli olduğunu inkar edir. Hakimiyyət deyir ki, bu, "Parisdə mənzil çatışmazlığını azaltmaq" üçün nəzərdə tutulmuş könüllü bir proqramdır". Bunu isə "The Guardian" yazıb.

Bu arada "France24" xatırladıb ki, Paris əsas etibarilə Afrika, Cənubi Asiya və Yaxın Şərqdən gələn və sığınacaq almaq istəyən miqrantlar üçün cəlbedici görünsə də, hakimiyyət bu ənənəyə son qoymaq barədə düşünür. Avropa Sosioloji Araşdırmalar Mərkəzinin statistik məlumatına görə, 2023-cü ildə bir milyondan artıq insan sığınacaq almaq üçün Avropa ölkələrinə müraciət edib. Bu isə son yeddi ildə ən yüksək göstərici hesab olunur. Həmin ölkələrin siyahısında Fransa ikinci yerdədir. Hökumət mühacirlərlə bağlı atdığı addımların Olimpiya Oyunları ilə əlaqəli olmadığını bildirsə də, buna inananlar azdır. Əslində, əyalət şəhərlərinin merləri də bu qənaəti paylaşırlar.



Fransa Dövlət Təhlükəsizliyi Xidməti də miqrantların paytaxtdan kütləvi şəkildə köçürülməsinin Olimpiya Oyunları ilə bağlı olmadığı barədə açıqlama yayıb. Müstəqil medianın məlumatına görə, bu kateqoriyadan olan əcnəbilərin yerləşdirilməsi üçün 10 regional mərkəz yaradılıb. Bununla bağlı Orlean merinin etirazına Strasburq şəhərinin rəhbərliyi də qoşulub. Merin müavini Florian Varyer mərkəzi hökumətin qərarına qəzəbini bu şəkildə ifadə edib: "Onlar bizimlə məsləhətləşmədən miqrantları şəhərimizə köçürməyə başlayıblar. Bu məsələdə Orlean merinin etirazına qoşuluram və baş verənləri qəbul etmirəm".

İlkin məlumata görə, Olimpiy Oyunlarına tamaşa etmək üçün 15 milyon turistin gələcəyi gözlənilir. Həmin günlərdə Parisdə sürücü çatışmazlığı, metroda gecikmələr səbəbindən ictimai nəqliyyatda ciddi tıxacların yaranacağı gözlənilir. Bütün bu problemlərin qarşısını almaq üçün hökumətin hansı tədbirləri görəcəyi məlum deyil.

Beləliklə, Yay Olimpiadası ərəfəsində Makron hakimiyyətinin çox ciddi sınaqlarla üzləşəcəyini indidən söyləmək olar. Və bütün bunların fonunda Fransada radikalların reytinqi durmadan artır. Bu isə Yelisey sarayı üçün miqrant problemindən daha ciddi, həm də siyasi başağrısına çevrilə bilər.

***İ.HƏSƏNQALA***
***XQ***

# Azərbaycan öz yatırımı ilə yeniləşir, yüksəlir

## *İqtisadiyyata ötən ildən 9 faiz çox sərmayə qoyulub*

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar–iyun aylarında ölkəmizdə əsas kapitala 7 milyard 984,8 milyon manat və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 9,4 faiz çox investisiya yönəldilib.**



Hesabat dövründə istifadə olunan investisiyanın 4 milyard 373 milyon manatı və yaxud 54,8 faizi məhsul istehsalı sahələrinə, 2 milyard 747 milyon manatı və yaxud 34,4 faizi xidmət sahələrinə, 864,3 milyon manatı və yaxud 10,8 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilən investisiyaların 6 milyard 452 milyon manatını və yaxud 80,8 faizini daxili investisiyalar təşkil edib, 5 milyard 513,4 milyon manatı və yaxud 69 faizi isə bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Məlumata görə, son 1 ildə neft-qaz sektoruna investisiyalar 4,5 faiz, qeyri-neft-qaz sektoruna investisiyalar isə 12,6 faiz yüksəlib. Yuxarıda qeyd edilən rəqəmlərdən də göründüyü kimi, ölkəmizdə yaradılan əlverişli biznes və investisiya mühiti iqtisadiyyatın bir çox sahələrində önəmli layihələrin icrasını şərtləndirir. Son bir neçə ildir ki, respublikamızda milli iqtisadiyyatın investisiya cəlbediciliyi baxımından uğurlu islahatlar həyata keçirilir. Dünyanın aparıcı təşkilatlarının hesabatlarında iqtisadiyyatımızın sürətlə inkişaf etdiyi, iqtisadi göstəricilərə görə lider ölkələr sırasına çıxdığı göstərilir. Azərbaycanın yüksək investisiya cəlbediciliyinə malik olması, təbii ki, aparılan islahatlarla bağlıdır.

Azərbaycanın investisiya mühiti investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılması, Apelyasiya Şuralarının təşkili, "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyaların qorunması haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanunları və bir sıra normativ sənədlərlə tənzimlənir.

Azərbaycan Prezidentinin "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" 19 oktyabr 2015-ci il tarixli Fərmanına əsasən, 2015-ci il noyabrın 2-dən İqtisadiyyat Nazirliyi tərəfindən dövlət təhlükəsizliyi ilə bağlı hallar istisna olmaqla lisenziyaların "ASAN xidmət" mərkəzləri vasitəsilə verilməsinə başlanılıb. Həmçinin dövlət başçısının "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" 21 dekabr 2015-ci il tarixli Fərmanına əsasən, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib, indiyə kimi verilən qüvvədə olan müddətli lisenziyalar, eləcə də yeni verilən lisenziyalar müddətsiz elan edilib. Lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə (regional televiziya və radio yayımı istisna olmaqla) azaldılıb, lisenziya verən dövlət orqanların sayı 23-dən 4-ə, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə endirilib, lisenziya verilməsi üçün tələb olunan prosedurlar isə sadələşdirilib.

Ölkədə elektron xidmətlərin, müasir texnologiyaların və mütərəqqi beynəlxalq təcrübənin tətbiqi nəticəsində Azərbaycanda sahibkarlıq subyektlərinin "bir pəncərə" sistemi tətbiq edilməklə qeydiyyatı sadələşdirilib. Elektron xidmətlərin tətbiqi nəticəsində fiziki və hüquqi şəxslərin sahibkarlıq fəaliyyətinin onlayn rejimində qeydiyyatına, vergi bəyannamələrin elektron qəbuluna başlanılıb. Nazirlər Kabinetin 8 sentyabr 2014-cü il tarixli Qərarına əsasən, elektron imzanın alınması müddəti 2 gündən 1 günə endirilib. Həmçinin "Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları"nın tələbinə uyğun olaraq, tikinti layihələrinin ekspertizasının "bir pəncərə" prinsipi ilə həyata keçirilməsinə başlanılıb. Aparılan islahatların davamı olaraq 2015-ci ilin oktyabrında Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılıb, Şuranın Əsasnaməsi və tərkibi təsdiqlənib.

Azərbaycan Respublikasının ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiq olunması nəzərdə tutulub və "bir pəncərə" prinsipinin tətbiqi üzrə vahid dövlət orqanının səlahiyyətlərinin həyata keçirilməsi Kordinasiya Şurasına həvalə edilib.

Yuxarıda sadalananlarla yanaşı, Azərbaycan Prezidentinin 2016-cı il 18 yanvar tarixli Fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiq edilib ki, həmin sənəd Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanunda müəyyənləşdirilən güzəştləri əldə etməyə əsas verir. Müvafiq olaraq Vergi Məcəlləsinə 2016-cı il 19 yanvar tarixində edilən dəyişikliklərə əsasən, investisiya təşviqi sənədini alan hüquqi şəxslər və fərdi sahibkarlar mənfəət və gəlirin 50 faizinin vergisini, əmlaka görə əmlak vergisini və mülkiyyətində və ya istifadəsindəki torpaqlara görə torpaq vergisini, həmçinin idxala yönəldilən texnika, texnoloji avadanlıqlar və qurğular üzrə əlavə dəyər vergisini ödəməkdən 7 il müddətinə azad edilib. Eyni zamanda, "Gömrük tarifi haqqında" Qanunda 2016-cı il 19 yanvar tarixində edilən dəyişikliklərə əsasən, investisiya təşviqi sənədini alan hüquqi şəxslər və fərdi sahibkarlar, habelə sənaye, yaxud texnologiyalar parklarının rezidentləri tərəfindən texnika, texnoloji avadanlıq və qurğuların idxalı 7 il müddətinə, sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru tərəfindən texnika, texnoloji avadanlıq və qurğuların idxalı isə idxal rüsumlarından azad olunub.

"Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin 4 mart 2016-cı il tarixli Sərəncamına əsasən, elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, gömrük rəsmiləşdirilməsi zamanı tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, gömrük orqanlarına əvvəlcədən elektron formada qısa idxal bəyannaməsini təqdim etmək yolu ilə malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sisteminin yaradılması və s. kompleks məsələlərin həlli ilə bağlı tapşırıqlar müəyyənləşdirilib.

Azərbaycana investisiya qoyuluşuna marağın getdikcə artması həm də ölkəmizin siyasi cəhətdən sabit olması, milli, dini və irqi tolerantlığı baxımından seçilməsi ilə bağlıdır. Bununla bərabər, respublika hökuməti tərəfindən həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində ölkədə güclü iqtisadi potensial mövcuddur. Yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzi olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır. Eyni zamanda, Azərbaycan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirir. Ölkəmizin təşəbbüskarı olduğu transmilli layihələr hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" də ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılmasına müsbət təsir göstərir. Adı çəkilən Yol Xəritəsinin müvafiq hədəflərini reallaşdırmaqla biznes mühitinin səmərəliliyinin artırılması istiqamətində orta müddətli xərclər strategiyası çərçivəsində yeni siyasətin tətbiqini, maliyyə-bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsini, habelə xarici bazarlara çıxış imkanlarının genişləndirilməsini gerçəkləşdirir.

Sözügedən Strateji Yol Xəritəsinin 5-ci bölməsində göstərilir ki, 2025-ci ilə qədər Azərbaycanda hər il ÜDM istehsalı 3 faizdən çox artacaq və əlavə olaraq 450 mindən çox yeni iş yeri yaradılacaq. İqtisadiyyatın sektorları üzrə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində isə qeyri-rəsmi məşğulluğun payı azalacaq.

Göründüyü kimi, hökumət ölkədə investisiya fəaliyyətinin genişləndirilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına, sənaye istehsalının artırılmasına, qeyri-neft sektorunun inkişaf etdirilməsinə ciddi önəm verir. Bu istiqamətdə qarşıya qoyulan əsas hədəflər sərmayə qoyuluşlarının artırılması, sahibkarların ixrac potensialının gücləndirilməsi, investisiya imkanlarının genişləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsidir.

## Yarımillik ÜDM 4 faiz çoxalıb

**Cari ilin yanvar–iyun aylarında ölkədə 59 milyard 520 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub.**



Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6 faiz, qeyri neft-qaz sektorunda isə 6,9 faiz artıb.

ÜDM istehsalının 38,5 faizi sənaye, 9,7 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,8 faizi tikinti, 5,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 19,5 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM isə 5840,7 manata bərabər olub.

## 6 ayda 32 milyard manatlıq sənaye məhsulu

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin yanvar–iyun aylarında ölkədəki sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 31,5 milyard manatlıq məhsul istehsal edilib.**



Bildirilib ki, son 1 ildə neft-qaz sektorunda məhsul istehsalı 0,3 faiz, qeyri neft-qaz sektorunda isə 7,4 faiz artıb.

Sənaye məhsulunun 65 faizi mədənçıxarma, 29,2 faizi emal, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi su təchizatı sektorlarında istehsal olunub. Mədənçıxarma sektorunda əmtəəlik qaz hasilatı isə 5,3 faiz yüksəlib.

**Prezident İlham Əliyevin milli maraqlara söykənən səmərəli iqtisadi siyasət kursunun uğurla həyata keçirilməsi nəticəsində dağ-mədən sənayesinin qeyri-neft-qaz sektorunda payı gündən-günə artır. Bu sahədə "AzerGold" QSC-nin fəaliyyəti xüsusi diqqət çəkir.**

# Milli qızıl ehtiyatımız 4 qat zənginləşib



"AzerGold"un dağ-mədən sənayesinin inkişafı ilə bağlı qarşıya qoyulan vəzifələri uğurla gerçəkləşdirməsini ifadə edən bəzi göstəricilərə nəzər salaq. QSC-dən redaksiyamıza bildirildiyinə görə, şirkətin 8 illik fəaliyyəti dövründə qiymətli metalların yerli və beynəlxalq bazarlarda reallaşdırılması ilə ölkə iqtisadiyyatına mühüm töhfələr verib. Bu müddətdə "AzerGold" qeyri-neft-qaz sektoru üzrə ixracatçı dövlət subyektləri sırasında ön pillələrdə qərarlaşıb. Səhmdar Cəmiyyət 441,326 unsiya qızılın, 919,244 unsiya gümüşün hasilatını reallaşdırıb, eyni zamanda, 437,730 unsiya qızıl, 889,709 unsiya qızıl və gümüşün yerli və beynəlxalq bazarlarda satışını həyata keçirib. Bu satış əməliyyatları nəticəsində ölkə iqtisadiyyatına 1 milyard 274 milyon 95 manat vəsait cəlb edilib.

Qeyd edək ki, 2017-ci ildə "Çovdar" qızıl yatağında hasilat işlərinə başlayan "AzerGold" QSC istismar işləri ilə paralel ətraf ərazilərdə – Daşkəsən və Göygöl rayonlarında əlavə kəşfiyyat işləri də həyata keçirib. Nəticədə kəşf və tədqiq edilən yeni yataqların hesabına satıla bilən qızıl ehtiyatı 179 min unsiyadan 778 min unsiyaya çatdırılıb. Bununla da "Çovdar" və cinahlardakı yataqlar üzrə ümumi satıla bilən qızıl ehtiyatı bazasının 4 dəfədən çox artırılmasına nail olunub.

Ötən illər ərzində müstəqil büdcə ilə qızıl mədənlərini uğurla istismara verən, illik 1 milyard manat dövriyyəsi olan dağ-mədən şirkəti olmaq yolunda inamla addımlayan "AzerGold" dövlətə vergi formasında 153 milyon 773 min 857 manat vəsait ödəyib.

# "Xankəndi" sualtı tikinti gəmisi modernləşdirilir



**(əvvəli 1-ci səhifədə)**

Şirkətdən verilən məlumata görə, ilkin olaraq 3 il müddətinə (əlavə 2 ilədək uzadılma imkanı ilə) imzalanmış müqavilənin iş həcminə "Xankəndi" gəmisinin ümumi operatorluğu və gəmiyə texniki xidmət, sualtı tikinti-quraşdırma fəaliyyətləri, sualtı müayinə, texniki xidmət, təmir işləri, BP-nin idarə etdiyi bütün obyektlər, sualtı boru kəmərləri və hasilat sistemi infrastrukturlarında ilk cavab tədbiri imkanının təmin olunması, habelə yataqların istismar müddətində tələb olunan xidmətlər üçün dəniz bazası dəstəyi daxildir.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda layihələr üzrə vitse-prezidenti Kahal Kelli deyib: "İki ildən artıq davam edən bu mürəkkəb tender prosesini uğurla başa çatdırmağımızdan çox məmnunuq. Bu müqavilə BP və tərəfdaşlarının məhz vahid gəmi strategiyasından istifadə etmələri üçün düşünülüb. Bu o deməkdir ki, bundan sonra "Xankəndi" dənizdəki bütün tikinti, quraşdırma, müayinə, təmir, texniki xidmət işlərimiz və fövqəladə hallara cavab tədbirlərimiz üçün əsas gəmi kimi istifadə olunacaq. Bu da əməliyyatlarımızı daha təhlükəsiz və səmərəli edəcək".

Qeyd edək ki, "Xəzər dənizinin yeni flaqman gəmisi sayılan "Xankəndi" 2017-ci ilin sentyabr ayında istismara verilib. Son texniki nailiyyətləri özündə birləşdirən bu sualtı tikinti gəmisinin layihələndirilməsinə və tikintisinə 378 milyon dollar xərclənib. Gəmi "Şahdəniz-2" layihəsi çərçivəsində Xəzər dənizində ən böyük sualtı hasilat sisteminin quraşdırılması üçün nəzərdə tutulub. Bu mürəkkəb və əsl çoxfunksiyalı gəmi SOCAR, Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) və Keppel O&M şirkətinin yaratdığı birgə müəssisə olan Bakı Gəmiqayırma Zavodunda layihələndirilib və inşa edilib.

Uzunluğu 155 metr, eni 32 metr və əsas göyərtə sahəsi 2 min kvadratmetr olan "Xankəndi" gəmisinin ümumi çəkisi 17 min 600 ton, suya oturumu isə 6,5 metr olmaqla daşıma gücü 5 min metrik ton təşkil edir. Gəmidə 6 ədəd 4,4 meqavat və 2 ədəd 3,2 meqavat gücündə generatoru olan 2 mühərrik bölməsi var. Bu nəhəng su nəqliyyatı 3,5 metr hündürlüyündə dalğalarda fəaliyyət göstərə bilmək üçün dinamik mövqeləndirmə sistemi, 600 metrədək dərinlikdə sualtı əməliyyatlar aparmaq üçün 900 metrik tonluq əsas kran, 2 ədəd 18 nəfərlik dalğıc kapsulu sistemi, eyni sayda məsafədən idarə olunan sualtı aparat və möhkəmləndirilmiş avadanlıq endirmə şaxtası ilə təchiz edilib.

"Xankəndi" gəmisi lövbərlərə heç bir ehtiyac olmadan ən mürəkkəb işləri həyata keçirə bilər. Gəmi heyəti və mütəxəssislər də daxil olmaqla "Xankəndi" gəmisinin göyərtəsi maksimum 175 nəfər üçün nəzərdə tutulub. Gəminin işçilərinin əksəriyyəti isə yerli mütəxəssislərdir.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




## “Yaşıl dünya” naminə həmrəylik



# “Yaşıl hidrogen”– gələcəyin əsas enerjisi

**(əvvəli 1-ci səhifədə)**

Avropa Yenidənqurma və İnkişaf Bankının tədqiqatlarında Azərbaycan ekoloji cəhətdən təmiz hidrogen istehsalının məqsədəuyğun olduğu ölkə kimi təsdiqlənib. Bununla yanaşı, adıçəkilən bankın dəstəyi ilə Niderlandın tanınmış “Advision” şirkəti respublikamızın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlilini də gerçəkləşdirib. Qurumun hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alıb.

Hazırda ölkəmiz Aİ ilə birgə “yaşıl enerji” dəhlizini inkişaf etdirir. Bu təşəbbüs Azərbaycanda istehsal olunan bərpaolunan enerjinin Avropaya nəqlinə yönəlib. Həmçinin respublikamızı yaşıl enerji dəhlizinin yaradılması üzrə Qazaxıstan və Özbəkistanla birləşdirən daha bir layihə icra mərhələsindədir, bu təşəbbüsdə ekoloji cəhətdən təmiz hidrogen həyati əhəmiyyətli rol oynayır. **Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin hidrogen və yaşıl texnologiyalar şöbəsinin müdiri Rəna Hümbətovanın fikirləri bu baxımdan diqqət çəkir:**

– Son dövrlər ölkəmizdə atmosferə atılan karbon emissiyaları ilə mübarizə üsullarından biri kimi qiymətləndirilən hidrogenin (yaşıl və mavi) tətbiqi və istifadəsi üzrə araşdırmalara başlanılıb. Əsas məqsəd müxtəlif hidrogen növlərinin istehsal imkanları, hidrogendən daxili bazarda istifadə edilməsi, potensialın qiymətləndirilməsi, eləcə də ixracının texniki imkanları və iqtisadi səmərəliliyinin araşdırılması, müvafiq sahəyə investorların cəlbi modelləri üzrə təkliflərin verilməsidir. Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə beynəlxalq məsləhətçi şirkət “Advisian” tərəfindən “Aşağı karbonlu hidrogen iqtisadiyyatı üçün bazar araşdırması”na dair ölkə hesabatının hazırlanması da bunun bariz ifadəsidir.

Azərbaycan zəngin təbii qaz ehtiyatlarına (“Şahdəniz” yatağı), həmçinin yüksək bərpaolunan enerji mənbələri potensialına sahib olmaqla aşağı karbonlu hidrogen iqtisadiyyatını inkişaf etdirmək üçün yaxşı mövqeyə malikdir. Bu isə ölkədə həm “yaşıl”, həm də “mavi” hidrogenin istehsalı üzrə inkişaf perspektivlərinin olması deməkdir. Bununla belə, “mavi” hidrogenin istehsalı zamanı karbon qazının tutulması və saxlanması kimi məsələlərin ətraflı araşdırılması tələb olunur. “Yaşıl hidrogen”in istehsalı üçün optimal halda LCOH (Levelized cost of hydrogen) göstəricisi 2,92 €/kq olaraq qiymətləndirilir. Bu optimal variantda ən ucuz bərpaolunan enerji kombinasiyası üçün Xəzər dənizində Azərbaycanın şərq hissəsinin külək enerjisindən və Naxçıvan bölgəsində daha ucuz başa gələn günəş enerjisindən istifadə nəzərdə tutulur.

“Yaşıl hidrogen”in istehsalı ilə müqayisədə daha ucuz başa gələn “mavi hidrogen”in Azərbaycanda tətbiqi üzrə bir sıra çətinliklər mövcuddur. Məsələn, karbon qazının tutulması və saxlanılması ilə bağlı texnologiyanın tətbiqindəki qeyri-müəyyənliyin nəzərə çarpması, istehsal olunan “mavi hidrogen”in beynəlxalq aşağı karbon standartlarına cavab verməməsi, təbii qaza tələbatın artması kimi çağırışlar var.




“Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində layihələrin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” ölkə Prezidentinin 2019-cu il 5 dekabr tarixli Sərəncamı ilə Azərbaycanda bərpaolunan enerji mənbələri (külək və günəş) üzrə elektrik stansiyalarının tikintisi ilə əlaqədar layihələrin həyata keçirilməsi və icrasının əlaqələndirilməsi məqsədilə yaradılan komissiyanın 2024-cü il 28 mart tarixli iclasının protokoluna əsasən, hidrogendən istifadə üzrə müvafiq konseptual-strateji sənəd layihəsinin hazırlanaraq razılaşdırılması prosesinin sürətləndirilməsi, yenilənmiş tərkibdə İşçi Qrupun yaradılması nəzərdə tutulub.

Bununla bərabər, “Azərbaycan Respublikasının 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyası”nda hidrogenin istehsalı və ondan istifadə sahəsində potensialın öyrənilməsi, eyni zamanda, bu sahədə pilot layihələrə dair təkliflərin formalaşdırılması qarşıya mühüm vəzifə kimi qoyulub. Bu istiqamətdə ölkəmizdə “yaşıl hidrogen” potensialının öyrənilməsi və inkişafı üzrə birgə əməkdaşlığa dair müqavilələr imzalanıb və bir sıra araşdırmalar aparılıb.

Qeyd edim ki, “Masdar” ilə quruda 1 giqavat gücündə günəş və 1 giqavat gücündə külək, dənizdə isə ilkin olaraq 2 giqavat, növbəti mərhələdə 4 giqavat gücündə külək enerjisi və hidrogen layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqavilələri imzalanıb və hazırda bu istiqamətdə tədbirlər həyata keçirilir.

“Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”i “yaşıl enerji”dən istifadə sahəsində Qara dənizi Xəzər dənizi regionu ilə əlaqələndirilməsinə töhfə verəcək. Elektrik kabeli Gürcüstanı və bütün Cənubi Qafqazı Rumıniyaya birləşdirəcək, “yaşıl enerji”nin Avropaya ixracına və qarşılıqlı dayanıqlığın gücləndirilməsinə imkan verəcək.

Energetika Nazirliyi tərəfindən hazırlanmış texniki tapşırıq sənədində “yaşıl elektrik” enerjisinin ixracı ilə birlikdə “yaşıl hydrogen” və digər “yaşıl qaz”ların ixrac imkanlarının qiymətləndirilməsi nəzərdə tutulub və bu istiqamətdə işlərin aparılması üçün “Cesi” məsləhətçi şirkəti cəlb edilib. Həmçinin Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında Mərkəzi Asiyadan Azərbaycan ərazisi vasitəsilə Avropaya elektrik enerjisinin ixracı üçün Birgə Kommünike qəbul edilib. Birgə Kommünikedə bərpaolunan enerji mənbələrinə əsaslanan enerji mübadiləsi, “yaşıl hidrogen” və “yaşıl ammonyak”ın inkişafı və ixracı, müvafiq infrastrukturun yaradılması sahəsində əməkdaşlıq kimi məsələlər əks olunub.

Azərbaycanın gələcəkdə istehsal edəcəyi hidrogeni dünya bazarlarına hansı dəhliz vasitəsilə ixrac etmək imkanı olduğundan danışarkən, ilk növbədə, bildirim ki, 2022-ci ildə Bakıda Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen və Prezident İlham Əliyev tərəfindən “Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu” imzalanıb. Memoranduma təbii qazın Avropa ölkələrinə ixracının artırılması ilə yanaşı, hidrogendən istifadə imkanlarının araşdırılması da daxildir. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizi üç əsas boru kəmərindən ibarətdir və Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz” yatağından hasil edilən təbii qazın Gürcüstan, Türkiyə, İtaliya və daha sonra Avropanın digər istiqamətlərinə nəqlinə imkan verir. Bu boru kəməri vasitəsilə kommersiya və müqavilə çətinlikləri aradan qaldırılarsa, hidrogen tərkibli qarışıq qazın Avropaya tədarükü üçün geniş imkanlar yarana bilər.

## 6 ayda 104 yeni enerji doldurma məntəqəsi

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Fiziki infrastruktur” işçi qrupunun “Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi”nin I yarım il üzrə icra vəziyyətinə dair növbəti iclası keçirilib. Komissiyadan redaksiyamıza daxil olan məlumata görə, iclas çərçivəsində altqrupa üzv qurumlar tərəfindən I yarım ildə görülən işlərə dair hesabat təqdim edilib, bu sahədə qazanılan uğurlar barədə ətraflı məlumat verilib.**



Hesabat xarakterli iclas zamanı avtomobil nəqliyyatı üzrə bu yaxınlarda qəbul edilmiş yeni dövlət standartları təqdim olunub, eləcə də ekoloji təmiz nəqliyyat vasitələrinin idxalı və istifadəsi üzrə müsbət dinamikanın müqayisəli təqdimatı keçirilib.

“Azərişıq” ASC tərəfindən ölkə ərazisində cari ilin ilk yarısında elektromobil istifadəçiləri üçün 104 qoşulma nöqtəsi istismara verilib, xüsusi proqram təminatına inteqrasiya edilib.

İclas zamanı, həmçinin ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin əldə edilməsi üçün maliyyə əlçatanlığının artırılması üzrə görülən işlər və yeniliklər, eləcə də vurğulanan nəqliyyat vasitələrindən istifadə üzrə zəruri infrastrukturun yaradılması sahəsində ən son yeniliklər barədə məlumat verilib.

Sonda Yol Xəritəsi üzrə icrası davam edən tədbirlər və qarşıda duran məsələlər müzakirə olunub.

Qeyd edək ki, altqrupa rəhbərliyi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi həyata keçirir.

## Bakıya 160 yeni elektrik avtobusu gətiriləcək

**COP29 tədbirinə qədər Bakıya 160 yeni elektrikli avtobus gətirilərək istifadəyə veriləcək. Bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) sədri Anar Rzayev jurnalistlərə açıqlamasında bildirib. O deyib ki, bu ilin əvvəlində paytaxtda 200 yeni avtobus xəttə buraxılıb, yaxın vaxtlarda isə sərnişinlərin istifadəsinə daha 200 avtobus veriləcək.**



Agentlik sədrinin sözlərinə görə, ilin sonunadək paytaxtda, ümumilikdə, 360 yeni avtobusun xəttə buraxılması nəzərdə tutulub. “Bakının avtobus nəqliyyatı ilə bağlı AYNA yeni şəbəkə hazırlayıb. Bu şəbəkə şəhərin rəqəmsal əkizində simulyasiya edilib. Hazırda şəbəkənin tətbiqinə başlanılıb. İlk beş marşrut artıq istifadəyə verilib. Bunlar şəhərin uzaq məntəqələrini mərkəzlə əlaqələndirən marşrutlardır. Onlar Hövsandan və Mərdəkandan işləyən marşrutlardır. Bu marşrutlar tədricən qanunvericiliyə müvafiq olaraq müsabiqədən keçirilməklə yenə də istifadəyə veriləcək”,– deyə o, əlavə edib.



## Braziliya sənayeçi heyəti Bakı Limanında

**Braziliyanın Milli Sənaye Konfederasiyasının ətraf mühit və dayanıqlı inkişaf üzrə rəsmisi Davi Bomtemponun rəhbərlik etdiyi yüksək səviyyəli nümayəndə heyəti Bakı Limanına səfər edib.**

Bakı Limanından redaksiyamıza verilən məlumatda bildirilib ki, limanın Baş direktoru Taleh Ziyadovla keçirilən görüşdə bu infrastrukturun Orta Dəhliz üçün yaşıllaşdırılma layihələri və onun qlobal əlaqədə əsas rolu müzakirə edilib. Braziliyanın Milli Sənaye Konfederasiyasının “yaşıl liman”, dayanıqlılıq, ekoloji, sosial və korporativ idarəetmə prinsipləri və Bakı Limanının karbon emissiyasının azaldılması üçün “yaşıl həllər” üzrə təcrübəsi əsasında fikir mübadiləsinə zərurət yarandığı vurğulanıb.

Görüş zamanı konfederasiya başda olmaqla, Braziliyanın aparıcı özəl şirkətlərinin bu ilin noyabrında COP29 çərçivəsində limanın ikinci mərhələsinin genişləndirilməsi planı üzrə potensial biznes imkanlarını araşdırmaq üçün Bakıya səfər etməsi razılaşdırılıb.

Braziliyanın ən böyük biznes platforması olan Milli Sənaye Konfederasiyası davamlı inkişafı təşviq edir və 27 dövlət federasiyasını və 200 mindən çox müəssisəni özündə birləşdirir.

Görüşdə Braziliyanın ölkəmizdəki səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz da iştirak edib.

## “Dəyirmi masa”da “yaşıl enerji” söhbətləri

**Energetika Nazirliyində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Enerji Təhlükəsizliyi və Xalis Sıfır İdarəsi ilə “Azərbaycanda yaşıl enerjiyə keçid” mövzusunda “dəyirmi masa” keçirilib. Tədbirdə Azərbaycan ilə Böyük Britaniya arasında “yaşıl enerji” üzrə əməkdaşlıq məsələləri müzakirə edilib.**

Energetika Nazirliyindən bildirilib ki, nazir müavini Orxan Zeynalovun iştirak etdiyi “dəyirmi masa”da Azərbaycanda bərpaolunan enerji mənbələri, dekarbonizasiya, enerji səmərəliliyi sahəsində hazırkı vəziyyət, həyata keçirilən cari layihələr barədə qarşı tərəfə məlumat verilib. Tədbirdə, həmçinin Azərbaycan və Böyük Britaniya arasında bərpaolunan enerji, xüsusilə yaşıl hidrogen istehsalı, enerji səmərəliliyi, elektrik şəbəkələrinin gücləndirilməsi üzrə əməkdaşlığa dair növbəti addımlar müzakirə edilib.

Qeyd edək ki, “dəyirmi masa”da Energetika Nazirliyi, nazirlik yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, nazirliyin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi, həmçinin “Azərenerji” ASC, “Azərişıq” ASC, SOCAR və BP şirkətlərinin nümayəndələri iştirak ediblər.

## COP29 qonaqlarına “Asan viza”

**Son illər iqlim dəyişikliyi və onunla mübarizə tədbirləri getdikcə daha çox aktuallıq kəsb edir. Bu səbəbdən də mütəxəssislər, ekspertlər, media işçiləri, eləcə də digər şəxslər iqlimlə bağlı keçirilən istənilən tədbiri diqqətlə izləyir, onun nəticələrini saf-çürük etməyə çalışırlar. Bu baxımdan cari ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a maraq olduqca yüksəkdir. Mötəbər iqlim tədbiri ərəfəsində Azərbaycana turist axınının güclənməsi gözlənilir.**




Bu amil nəzərə alınaraq dünəndən ölkəmizdə COP29-da iştirak edəcək əcnəbilər üçün xüsusi viza müraciət sistemi işə salınıb. Bu barədə məlumat COP29-un rəsmi internet portalında dərc edilib. Qeyd edilib ki, əcnəbi iştirakçılar Azərbaycana birdəfəlik giriş vizası əldə etmək üçün sözügedən sistemin xidmətlərindən istifadə edə bilərlər. Onlar ölkəmizi tərk etmək və COP29-un davam etdiyi günlərdə yenidən geri qayıtmaq istəyəcəkləri təqdirdə bir daha UNFCCC-nin təqdim etdiyi qeydiyyat nömrəsindən istifadə edərək viza müraciəti prosesini təkrarlamalıdır.

Bildirilib ki, iştirakçıların qeydiyyatı UNFCCC-nin onlayn qeydiyyat sistemi vasitəsilə təsdiqləndikdən sonra onlara e-poçtla UNFCCC qeydiyyatını təsdiqləyən viza üçün müraciət linki göndəriləcək. Portalın məlumatında, həmçinin diqqətə çatdırılıb ki, bu məqsədlə Azərbaycana gələcək əcnəbilərin pasportları aktiv olmalı, etibarlılıq müddəti ölkəmizin ərazisinə daxil olduqları tarixdən azı 6 ay sonrakı dövrü əhatə etməlidir.

Qeyd edək ki, iştirakçılara göndəriləcək xüsusi elektron viza formasında sözügedən sənədin verilmə müddəti qeyd olunacaq. Orada əks edilən məlumatlarda viza sənədinin 30 noyabr 2024-cü ilədək qüvvədə olması göstəriləcək. “COP29 xüsusi vizasında sənədin verilmə tarixi qeyd ediləcək və bu viza 30 noyabr 2024-cü il tarixinədək etibarlı olacaq. Viza sahibləri Azərbaycan Respublikasına bu tarixdən əvvəl daxil olmalıdırlar”, – deyə məlumatda bildirilib.

COP29-un rəsmi internet portalında vizanın əldə olunması üçün müraciət qaydası da açıqlanıb. Bildirilib ki, hər bir iştirakçı link vasitəsilə daxil olaraq müvafiq formanı doldurmalı və tələb olunan sənədlərin elektron versiyalarını təsdiq məqsədilə portala yükləməlidirlər. Məlumata əsasən, müraciət təsdiq edildikdən sonra COP29 xüsusi vizasının vebsaytdan yüklənilməsi üçün iştirakçılara vizanı təsdiq edən e-poçtla link göndəriləcək. “İştirakçılara UNFCCC-də qeydiyyat təsdiqləndikdən dərhal sonra COP29 xüsusi vizası üçün müraciət etmələri tövsiyə olunur. Vizanın statusunu izləmək üçün UNFCCC qeydiyyatını təsdiq edən e-poçtdakı viza portalı linkindən istifadə edilməlidir”, – deyə sayt bildirib.

Dünənimizin gerçəkləri

# Almanlar Azərbaycana niyə köçürülmüşdü?

## Çar Rusiyasının məqsədi Azərbaycanda xristian əhalini çoxaltmaq idi

**Avropa memarlığı nümunələri ilə zəngin olan Bakıda nadir arxitekturası ilə fərqlənən bir bina da diqqəti çəkir. Bu bina 28 May küçəsində yerləşən lüteran kilsəsidir. Tarixi araşdırmalar təsdiqləyir ki, XIX əsrin ortalarından Bakıya xeyli avropalı gəlib. Neft bumu o dövrdə şəhərdə məskunlaşan alman və isveç əsilli insanların da sayını artırıb. Beləliklə, onlar müsəlman şəhərində dini ibadət üçün kilsə tikmək qərarına gəliblər. Tarix boyu tolerantlığı ilə nümunə olan xalqımız bu ideyanın həyata keçirilməsində də onlara dəstək verib. "Alman kirxası" adlanan kilsənin tarixi ilə maraqlananda məlum oldu ki, bina 1896–1899-cu illərdə inşa edilib.**



XIX əsrdə almanlar təkcə Bakıya deyil, Zaqafqaziyanın müxtəlif bölgələrinə köçüblər. Azərbaycanda almanların məskunlaşması ilə bağlı suallara cavab tapmaq üçün tarixçi Əmirxan Burzuyevlə görüşüb söhbət etdik.



***–Almanların Zaqafqaziyaya köçü nə məqsəd daşıyıb və nə vaxtdan başlayıb?***

– Almanlar Rusiya–İran müharibəsinin bitməsindən və 1813-cü ildə Rusiya ilə İran arasında Gülüstan müqaviləsinin bağlanmasından sonra Zaqafqaziyada məskunlaşmağa başlayıblar. Rusiyanın bir məqsədi almanların köməyi ilə işğal etdiyi türk ölkəsində kənd təsərrüfatının müxtəlif sahələrini və kustar sənayeni inkişaf etdirmək idisə, əsas niyyəti, əsasən, müsəlmanlar yaşayan Azərbaycanda xristian elementini gücləndirilməklə bağlı idi. Bu səbəbdən də çar Rusiyası Zaqafqaziyaya alman kolonistlərinin köçürülməsinə ciddi diqqət yetirirdi.

Zaqafqaziyaya köçürülmə prosesi 1817–1818-ci illərdə başladı. Onların Qafqaza köç etməsinin ideoloji ilhamçısı Qafqaz ordusunun baş komandanı, general A.P.Yermolov idi. Çar I Aleksandrın özü də bu məsələ ilə maraqlanır və məşğul olurdu. Bunu sübut edən kifayət qədər faktlar da var. Məsələn, almanların Zaqafqaziyaya köçündən bir neçə il əvvəl – 4 iyun 1815-ci ildə Vyana Konqresi zamanı imperator Rusiya ordusunun əsas qərargahının yerləşdiyi Ştutqart şəhərinə gedərkən yolüstü Helbronda Alman dini separatçılarının nümayəndələri ilə görüşüb. Almanlar ondan Qafqaza köçmək üçün icazə verilməsi xahişini ediblər. Bundan sonra imperator kolonistlərin Qafqaz bölgəsində məskunlaşmasına razılıq və dövlət xəzinəsindən 100 min rubl ayırmaq əmri verib.

***– Bəs, almanların Qafqaza köçmək istəyi nə ilə bağlı idi?***

– Bunun bir neçə səbəbi var idi. Əvvəla, parçalanmış Almaniyada dini motivlər çətin şərait yaratmışdı. Dini separatizm qarşıdurmalar yaradırdı. Pietizm təliminə görə həqiqi dini hisslər və mənəvi aləmdə Allahı yaşatmaq hər hansı bir kilsə doqmalarından yüksək sayılırdı. Rəsmi lüteran kilsəsini qəbul etməyənlər başqa torpaqlara köçə üstünlük verirdilər. İkincisi isə XVIII əsrin sonları və XIX əsrin əvvəllərindəki müharibələr alman xalqını yormuş və ciddi sosial problemlər qarşısında qoymuşdu. Bu səbəbdən də onlar başqa ərazilərə köç edirdilər.

***– Azərbaycanda ilk alman koloniyası nə vaxt yaranıb?***

– Zaqafqaziyaya gələn ilk alman kolonistlər Tiflis bölgəsində məskunlaşıblar. Amma sonradan əlverişli yerlər qalmadığına görə, onların Yelizavetpol quberniyasına yerləşdirilməsinə və yararlı torpaqlar ayırılmasına qərar verilib. Ancaq sonra gələn kolonistlər bununla razılaşmayıblar. Kazak dəstələri almanları zorla Tiflisdən qovaraq onları Yelizavetpola getməyə məcbur edib. 1819-cu ilin yazında 118 alman ailəsi Gəncəçayın sol sahilinə köçürülüb. Onlar Yelizavetpoldan 7 mil məsafədə böyük knyagina Yelena Pavlovanın şərəfinə Yelenendorf adlı bir koloniya qurublar. Bu, Azərbaycanda ilk alman koloniyası idi. İkinci koloniya isə 1820-ci ildə salındı və böyük knyaginya Anna Pavlovanın şərəfinə Annenfeld adlanıb. Bu yaşayış məntəqəsini 67 alman ailəsi salıb.

Vürttemberq və digər regionlardan almanlarının köçürülməsi prosesi sonrakı illərdə də davam etdirilib. 1842-ci ildə Tavriya (Krım) əyalətindən gələn 70 kolonist Xəzər bölgəsində yerləşmək istəyiblər. Onlar Şamaxıdan 7 mil məsafədə, Pirsaat çayı boyunca yerləşən dövlət torpaqlarında məskunlaşıblar. Burada alman kolonistlərinin sayı 92 nəfərə çatıb. Ancaq əlverişsiz iqlim şərtləri onların sağlamlığına mənfi təsir edib. Buna görə də tezliklə almanlar geri dönmək məcburiyyətində qalıblar.

Alman mühacirləri ilə yanaşı, Rusiya hakimiyyəti Qafqazda İsveçrədən gələn missionerlərin məskunlaşmasına da icazə verib. Onlar da alman idilər və 1821-ci ildə Şuşada və Qarabağ vilayətində yerləşiblər.

***– Bu köçürülmələrlə Rusiya qarşıya qoyulan məqsədlərə çatdımı?***

– Rusiya hakimiyyəti qısa müddət ərzində müxtəlif sahələrdə: konfessiyonal, mədəni, sosial, ticarət və sənaye sahələrində kolonistlərdən çox böyük nəticələr gözləyirdi. Bu səbəbdən də Rusiya kolonistlərə hərtərəfli yardım göstərirdi. Bəli, hakimiyyət yardımlarda xəsislik etmirdi. Vürttemberq krallığından köçənlərin yerləşməsinə xəzinə 697 min 428 gümüş rubl xərcləmişdi, 1823-cü ilə qədər almanlara ödənişlərin miqdarı gümüş pulla 1 milyon 65 min 642 rubla çatmışdı. Bundan başqa, kolonistlərə 1823-cü ildən başlayaraq, 20 il müddətinə geri ödəmə öhdəliyi ilə kredit verilirdi. Artıq 1837-ci ilə qədər almanların Rusiya dövlətinə 206 min 130 rubl kredit borcu yaranmışdı. Bu borcun ödənilməsinə yalnız 1852-ci ildə başlanıldı. Əslində, alınan kolonistlər kreditin üçdə bir hissəsindən az hissəsini ödədilər.



Almanların fəaliyyətsizliyi Rusiya rəhbərliyini ciddi düşündürdü. Onlar növbəti 13 il ərzində nəinki tək bir koloniya yaratmadılar, hətta başqa dinə qulluq edən bir nəfəri belə xristiana çevirə bilmədilər. Çarizmin məqsədlərdən biri də qeyri-xristianların xristianlaşdırılması idi. Yəni bu məqsədə nail olunmadı. Bir nəfər belə azərbaycanlı xristianlaşmadı. Amma iqtisadi sahədə müəyyən uğurlar oldu.

***– Almanlar Azərbaycan iqtisadiyyatına nə verdilər?***

– 1870-ci illərə qədər alman kolonistlərinin bir çox problemləri aradan qaldırıldı. 50 il ərzində Zaqafqaziyada yaşayan kolonistlərin sayı iki dəfədən çox artdı. Bu, torpaq çatışmazlığına səbəb oldu. Problem isə yerli əhalinin torpaqları hesabına həll edildi. Beləliklə, 15 may 1866-cı ildə əvvəllər azərbaycanlılara məxsus olmuş 1700 hektar torpaq Yelenendorf sakinlərinə verildi.

Kolonistlərin əsas məşğuliyyəti üzümçülük idi. Onların ilk üzüm bağları XIX əsrin əvvəllərində salınmışdı. Bu sahədə üstünlük Yelenendorf kolonistlərinə aid idi. Gəncə çayının dərin dərəsinin yamaclarında və qonşu dağlıq ərazilərdə əkilmiş yerli üzüm sortları becərilirdi. XIX əsrin ikinci yarısında bu koloniyanın üzüm bağları geniş əraziləri – təxminən, 300 hektar sahəni əhatə edirdi. Üzümçülüyün inkişafı isə Yelenendorfda şərab sənayesinin yaranmasına kömək etdi. 1860-cı il Azərbaycanda şərabçılığın yaradılması üçün başlanğıc nöqtəsi oldu. Şərab sənayesinə Yelenendorfdan olan alman sahibkarlar H.Forer və I.Hümmel rəhbərlik edirdilər.

Alman kolonistlərin təsərrüfat fəaliyyətində önəmli yer tutan sahələrdən biri də ipəkçilik idi. Kolonistlərin köməyi ilə imperiyanın ucqarlarında iqtisadiyyatın müxtəlif sahələrini inkişaf etdirmək istəyən Rusiya hökuməti diqqəti ipəkçiliyə və tütünçülüyə yönəltməyə çalışıb. 1841-ci ildə Qafqaz administrasiyası ipəkçiliyin sirrini öyrənmək üçün 5 alman gənci Şəki şəhərinə göndərib. Onlar burada böyük təcrübə keçiblər və bu sahənin mütəxəssisləri kimi Yelenendorfa qayıdıblar. Artıq 1845-ci ildə burada 14 min tut ağacına sahib olan 40 qeydiyyatdan keçmiş ipəkqurdu evi fəaliyyət göstərirdi. Alman kolonistləri bu uğurları ilə kifayətlənməyiblər. 1860-cı illərdən sonra onlar mineral suyun sənaye istehsalını da təşkil ediblər.

Alman kolonistlər yarana biləcək ərzaq qıtlığına da hazırlaşıblar. 1849-cu ildən Cənubi Qafqazın Alman koloniyalarında ehtiyat çörək sexləri yaradılıb. Bu sexlər quraqlıq və məhsuldarlığın az olduğu dövrlərdə kolonistlərin ehtiyaclarını ödəyib. 1851-ci ilin yanvarından isə kolonistlərin kapitalının formalaşması prosesi başlayıb.

1863-cü ildə Siemens qardaşları ilk dəfə Gədəbəyin mis yataqlarına sərmayə qoyaraq Azərbaycanda fəaliyyətə başlayıb. Şirkət 20-ci əsrin əvvəllərinə kimi bütün Qafqazdan əldə edilən misin 2/3 hissəsini burdan çıxarıb.

Qeyd edim ki, 1879-cu ildə alman əslli Nobel qardaşları Azərbaycanın neft sektoruna girmiş, "Nafta (neft) İstehsalı Birliyi" təsis ediblər. Bu dövrdə Almaniya neft ehtiyacının 20 faizini Azərbaycanın hesabına ödəyib.

* *

Müsahibimizin dediklərinə əlavə olaraq oxucuların nəzərinə çatdıraq ki, 1888-ci ildə Yelenendorf koloniyasından 80 ailə Georqsfeld qəsəbəsinin əsasını qoyublar. Bu məntəqə Şəmkir rayonunun ərazisindəki indiki Çinarlı qəsəbəsidir. 1904-cü ildə Yelenendorf koloniyasından gələn almanlar Alekseyevkanın əsasını qoyublar. Bu kənd Ağstafa rayonu ərazisində yerləşir.

Eyqenfeld yaşayış məntəqəsinin əsası isə 1906-cı ildə qoyulub. Mənası "Palıd vadisi"dir. Hazırda Şəmkir rayonun ərazısındə yerləşir və İrmaşlı adlanır. Alman kolonistləri 1912-ci ildə isə Traubenfeld (üzüm sahəsi) qəsəbəsinin əsasını qoyublar (Tovuz). Qrinfeld (Qryunfeld) qəsəbəsini isə almanlar 1906-cı ildə salıblar. 1941-ci ildə almanlar sürgün edildikdən sonra yaşayış məntəqəsi Kalininkənd adlanıb. Bu məntəqə Ağstafa rayonundakı Vurğun kəndidir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**İyulun 11-də Vaşinqtonda başa çatan NATO-nun 75-ci sammitində müttəfiqlər dünya nizamının qarşısında duran əsas çağırışlar barədə qərar qəbul ediblər. Yekun bəyannamədə Rusiya blokun təhlükəsizliyinə "ən əhəmiyyətli və birbaşa təhdid", Çin isə "Ukraynaya qarşı müharibəyə töhfə verən əsas amil" adlandırılıb. Eyni zamanda, tərəfdaşlar "Moskva ilə əlaqə kanallarını saxlamağa" və Pekinlə "konstruktiv qarşılıqlı əlaqəyə" hazır olduqlarını bildiriblər. NATO-nun yekun qərarları Rusiyada və Çində mənfi reaksiyaya səbəb olub.**

# NATO Avropada kimi kimdən qoruyur?

## Moskva və Pekin alyansın iddialarını qəbul etmədi

Yekun bəyannaməyə əsasən, müttəfiqlər NATO-nun 75-ci ildönümü qeyd olunan sammitini uğurlu hesab edirlər. Sənəddə vurğulanır ki, "sülhü qorumaq üçün yaradılmış təşkilat tarixin ən güclü ittifaqı olaraq qalır" və həmçinin "Avropada amansız işğalçılıq müharibəsi qarşısında birlik və həmrəyliyi" qoruyur. Bəyannamədə vurğulanır ki, NATO yalnız müdafiə məqsədləri güdür və "fərdi və kollektiv təhlükəsizlik" məsələlərinin müzakirəsi və tədbirlər görülməsi üçün "unikal, mühüm və əvəzedilməz transatlantik forum olaraq qalır".

Vurğulanan birliyə baxmayaraq, bu yaxınlarda "sülh missiyası" ilə Kiyev, Moskva və Pekinə səfər edən Macarıstanın Baş naziri Viktor Orbanın fikirləri ümumi birlik barədə deyilənlərə şübhə ilə yanaşmağa vadar edir. Macarıstan lideri belə qənaətə gəlib ki, NATO özünü getdikcə daha çox hərbi təşkilat kimi aparır və bunun bir əlaməti onun Rusiya-Ukrayna münaqişəsində artan roludur. Onun fikrincə, "belə davranış təhlükəli və məsuliyyətsizdir" və alyans üzv ölkələrini qorumaq üçün yaradılıb, halbuki indiki kursu ilkin məqsədlərinə uyğun gəlmir.

Gözlənildiyi kimi, sammitdə əsas müzakirələr Ukrayna ətrafında oldu. Kiyevin NATO gələcəyi və müttəfiqlərin dəstəyi barədə fikir mübadiləsi aparıldı. Alyans üzvləri 2025-ci ildə Kiyevə, ən azı, 40 milyard avro hərbi yardım göstərməyi öhdələrinə götürüblər və bəyannamədə qeyd olunub ki, Ukraynaya "NATO üzvlüyü də daxil olmaqla, tam Avro-Atlantik inteqrasiyaya doğru dönməz yolda" dəstək veriləcək. Bundan başqa, Vaşinqton konqresindən sonra ABŞ-ın rəhbərlik etdiyi Ramşteyn formatında Ukraynanın müdafiəsi üzrə təmas qrupunun funksiyalarının əhəmiyyətli hissəsi alyansa keçəcək. İndi təşkilatın Ukrayna ordusu üçün təchizat və təlimlərin əlaqələndirilməsində rolu artacaq.

Doğrudur, Ukraynanın bütün istəkləri müttəfiqlər tərəfindən təmin edilmədi. Belə ki, Kiyev NATO-ya üzv olmaq barədə dəvət almadı. Bir tərəfdən, bu, proqnozlaşdırılırdı və heç kimi təəccübləndirmədi. Digər tərəfdən, prezident Volodimir Zelenski Vaşinqtona dəvətdə israr etməsə də, Kiyev hələ də onu gözlədiklərini açıq şəkildə bildirirdi. Bəyannamədə qeyd olunub ki, "müttəfiqlər belə bir addımla razılaşdıqda və müvafiq şərtlər yerinə yetirildikdə" Ukrayna NATO-ya dəvət olunacaq. Başqa sözlə, bəyannamədəki ifadələr bu dəfə gücləndirildi, lakin Vaşinqton görüşü nəticəsində Ukraynanın Şimali Atlantik gələcəyilə bağlı güclü zəmanət verilmədi.

Bundan başqa, NATO sammitinin iştirakçıları Rusiyanı "məsuliyyətsiz nüvə ritorikasında" ittiham ediblər və onu "müttəfiqlərin təhlükəsizliyinə ən mühüm və birbaşa təhdid" adlandırıblar. Bundan əlavə, bəyannamədə Çinə qarşı kifayət qədər sərt ifadələr yer aldı: Pekinin siyasəti "sərhədsiz tərəfdaşlıq və Rusiyanın müdafiə sənayesi bazasına geniş miqyaslı dəstək sayəsində Rusiyanın Ukraynaya qarşı müharibəsinə töhfə verən həlledici amil" adlandırılıb. NATO ölkələrinin liderləri Çindən Rusiyanın "hərbi səylərinə hər cür maddi və siyasi dəstəyi dayandırmağa" çağırıblar. Qərb liderləri, həmçinin "Yaxın tarixdə Avropanın ən böyük müharibəsinin" ÇXR-in maraqlarına və nüfuzuna xələl gətirəcəyi barədə xəbərdarlıq ediblər. Çinlə yanaşı, İran və Şimali Koreya da Moskvaya dəstək verməkdə ittiham olundu.

NATO Pekinin genişlənən nüvə arsenalı ilə yanaşı, "Çinin kosmik imkanlarından" da narahatdır. Alyans vurğulayıb ki, hazırda Hind–Sakit Okean regionu üçün xarakterik olan tendensiyalar Avro-Atlantik təhlükəsizliyə təsir göstərir və buna görə də hərbi blok bu yarımkürədə yerləşən ölkələrlə və ilk növbədə, Avstraliya, Yaponiya, Yeni Zelandiya və Cənubi Koreya ilə tərəfdaşlıq əlaqələri inkişaf etdirmək niyyətindədir. Eyni zamanda, alyans qeyd edib ki, onlar Rusiya və Çinlə müxtəlif dərəcədə dialoqa açıq qalırlar. Müttəfiqlər Rusiya ilə "qarşıdurma axtarmadıqlarını və təhlükə yaratmadıqlarını" və həmçinin "riski azaltmaq və gərginliyin qarşısını almaq üçün Moskva ilə əlaqə kanallarını saxlamağa hazır olduqlarını" bildiriblər. Tərəfdaşlar "strateji risklərin azaldılması və şəffaflıq yolu ilə sabitliyin təşviqi" məsələlərini müzakirə etməyə çağırıblar və "ÇXR ilə konstruktiv qarşılıqlı fəaliyyətə hələ də açıq olduqlarını" vurğulayıblar.




NATO-nun yekun bəyannaməsində qeyd olunanlar Moskvada yaxşı qarşılanmadı. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun sözlərinə görə, "Şimali Atlantika Alyansı bir daha öz mahiyyətini çox aydın şəkildə təsdiqləyib" və "qarşıdurmanı saxlamaq" məqsədi daşıyır. Cənab Peskov bildirib ki, Rusiya "qəbul edilmiş qərarları və aparılan müzakirələri çox dərindən öyrənəcək və bəyannamənin mətnini çox diqqətlə təhlil edəcək", çünki söhbət Rusiyanın "milli təhlükəsizliyinə çox ciddi təhdid"dən gedir.

Pekin də Vaşinqtondan gələn xəbərdən narazı qalıb. Çinin Avropa İttifaqı yanındakı nümayəndəliyi bəyanat yayıb ki, burada "Çinlə bağlı məqamlar" "təxribat xarakterli, aşkar yalan və böhtanlar ehtiva edir". Çin Rusiyanın tərəfində "oynamaq" ittihamlarını rədd edərək, "münaqişədə heç bir tərəfə öldürücü silah vermədiyini və ikili təyinatlı mallara ciddi ixrac nəzarətini saxladığını" vurğulayıb. "Ukrayna böhranı uzun müddətdir ki, davam edir. Bəs odun üstünə kim yağ tökür? Alovu kim yandırır? Və kim eqoist mənfəət axtarır? Cavab hər kəsə bəllidir", – diplomatik nümayəndəlik "günahkarın" adını dəqiqləşdirmədən bildirib.

NATO-nun Hind–Sakit okean regionunda güclənməsi də Çinin xoşuna gəlməyib. Pekin NATO-ya "Şimali Atlantika regionunda regional müdafiə təşkilatı rolunda qalmağı" tövsiyə edib. Çin Xarici İşlər Nazirliyinin nümayəndəsi Lin Jian NATO-nu "Çinin daxili işlərinə qarışmağı və onu ləkələməyi dayandırmağa, Asiya–Sakit okean regionunda xaos yaratmamağa" çağırıb.

***S.ELAY***
***XQ***

Azərbaycan Yazıçılar Birliyi – 90

# Milli ədəbiyyatımızın baş qərargahı



**Ölkəmizdə ədəbi-ictimai fikrin yaradıcı mərkəzi, milli məfkurəni yaşadan, azərbaycançılıq ideologiyasını formalaşdıran və sabahlara daşıyan Yazıçılar Birliyi bütün dönəmlərdə sözə-sənətə sadiqlik nümunəsi göstərib. Bu ədəbi-bədii qurum Azərbaycan dilinin keşiyində dayanıb, zənginləşməsinə çalışıb. 90 illik yubileyini qeyd etdiyimiz bu öncül və nüfuzlu yaradıcılıq qurumu haqqında tanınmış qələm sahiblərimizin özəl fikirlərini oxuculara təqdim etməyə başlayırıq. İlk müsahibimiz Xalq yazıçısı Elçindir.**

***– Elçin müəllim, deyə bilərik ki, AYB sizə şəxsən daha doğma olan məkandır. Əvvəlcə bu yaxınlığın tarixçəsindən başlayaq...***

– Düz deyirsiniz. Mənim uşaqlıq, yeniyetməlik, gənclik illərimlə bağlı bir çox gözəl xatirələrim Yazıçılar Birliyi (o vaxtlar Yazıçılar İttifaqı adlanırdı) ilə bağlıdır və ora mənim üçün məhrəm bir yerdir. Məsələ burasındadır ki, mənim oxuduğum 7 saylı məktəb Yazıçılar Birliyi ilə üzbəüz idi. O zaman atam İlyas Əfəndiyev Yazıçılar İttifaqında işləyirdi, mən də hərdən dərsdən sonra ora gəlirdim. Mən Məmməd Səid Ordubadini, Abdulla Şaiqi, Mirzə Cəlilin xanımını Həmidə xanım Cavanşiri ilk dəfə orda görmüşəm.

Bu sözləri deyirəm və Mehdi Hüseynin ittifaqın 3-cü mərtəbəsində, Natəvan klubunun foyesində xüsusi bir şövqlə bilyard oynamağı, Səməd Vurğunun oyuna baxa-baxa duzlu atmacaları ilə Mehdi Hüseyni qızışdırmağı, Əbülhəsənin: "Əzizim! Əzizim! Bu nə dəsgahdı belə?" – deməyi, Süleyman Rüstəmin siqaretini tüstülədə-tüstülədə yanındakılara göz vuraraq: "Əbülhəsən, deyirlər, əvvəllər sən də yaxşı bilyard oynamısan?" – söyləməyi, Əbülhəsənin: "Xeyr, Süleyman Rüstəm, bu, sənin təzə uydurmandır!" – deyə ona bozarmağı indi də keçib-getmiş səmimi, istiqanlı və koloritli günlər kimi yadıma düşür.

Elə o Natəvan klubunda ədəbiyyatla bağlı tədbirləri, "Gənclər günü"ndə yazıçı olmaq istəyən bir gənc kimi mənim də hekayəmin oxunub müzakirə edilməsini, Mehdi Hüseynin, İsa Hüseynovun, gənc Bəkir Nəbiyevin. Əliağa Kürçaylının, Kamal Qəhrəmanovun o hekayəni çapa məsləhət görmələrini və 16 yaşımda ikən, 1959-cu ilin indiyə qədər yaddaşıma hopmuş 5 iyulunda "Azərbaycan gəncləri" qəzetində çap olunmağımı – o ilk çapın qürurunu xatırlayıram.

***– Sonralar istedadınız daha da parladı və hətta siz Yazıçılar İttifaqında işə də düzəldiniz...***

– Elədir, iş elə gətirdi ki, mən 1975-ci ildən etibarən İmran Qasımov, Mirzə İbrahimov, Balaş Azəroğlu, İsmayıl Şıxlı, Hüseyn Abbaszadə, Cabir Novruz, İshaq İbrahimov kimi unudulmaz həmkarlarımla birlikdə Yazıçılar İttifaqında katib işlədim. Bu gün mən Əbülqasım Hüseynzadə, Qulam Məmmədli, Əli Səbri kimi qocaman dostlarımı (!), bilavasitə təmasda olduğum Əli Vəliyev, Süleyman Rəhimov, Əbülhəsən, Süleyman Rüstəm, Rəsul Rza, Osman Sarıvəlli, Əhməd Cəmil və bir çox başqa yazıçı və şairlərimizi tez-tez xatırlayıram.

Düzdür, bu xatirələrdə nostalji də var, ancaq mənim üçün onlar həmişə çox xoş, köhnə təbirlə desəm, nəşəli bir aura altında olan xatirələrdir.

Yazıçılar İttifaqının mürəkkəb, 1937–38-ci illərdə isə hətta qorxulu bir tarixi var, ancaq bütün bunlara baxmayaraq, bu qurum Hüseyn Cavid, Mikayıl Müşfiq, Yusif Vəzir, Əhməd Cavad və başqa repressiya qurbanlarıyla, eləcə də salamat qalanlarla birlikdə, müştərək surətdə, yeni bir küll halında Azərbaycan ədəbiyyatının, dilinin, ictimai fikrinin, xalqımızın milli mənliyinin yaşadılmasında və inkişafında xidmətləri böyükdür.

***– Elçin müəllim, sonda yubiley arzularınızı eşitmək istərdik.***

– Yazıçılar İttifaqı artıq keçmişdə qalıb, adını çəkdiyim və çəkmədiyim qələm sahiblərinin hamısı indi həyatda yoxdur. Nə yaxşı ki, bu gün Yazıçılar Birliyi var və mən bu 90 illik yubileydə, Anar başda olmaqla, birliyin bütün əməkdaşlarını təbrik edir, onlara can sağlığı diləyir və ən gözəl istəklərimi bildirirəm. Arzu edirəm ki, Yazıçılar Birliyi daha artıq şövqlə, daha artıq ehtirasla ədəbiyyatın keşiyində dayansın. 100 illiyini də Azərbaycan ədəbiyyatının böyük bayramı kimi qeyd eləsin!

***– Müsahibə üçün minnətdarıq. Biz də sizə möhkəm can sağlığı, yeni, gözəl əsərlərlə oxucuları sevindirməyinizi arzu edirik!***

***Müsahibəni hazırladı:***
***Əli NƏCƏFXANLI, AYB-nin üzvü***

Tovuz döyüşlərindən 4 il ötdü



# Zəfər yolumuza işıq salan günlər

**Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlıq salnaməsinin qızıl səhifələrindən sayılan 2020-ci il 12–17 iyul tarixli Tovuz döyüşləri Vətən müharibəsində Qələbəmizin aydın eşidilən addım səsləri olub.**



...Sumqayıtda Milli Qəhrəman Polad Həşimovun adını daşıyan küçənin başlanğıcındakı lövhənin qarşısındayam. Bura Səməd Vurğun küçəsi ilə kəsişən yerdir. Böyük şairin misraları yadıma düşür:

*Gəl çıxaq cəbhəyə, əmr edir Vətən,*
*Sən də bu meydanda kükrəyib çağla!*
*Düşmənin gülləsi dəysə sinəmdən,*
*Mehriban əlinlə yaramı bağla!*

Polad Həşimov Qəbələ rayonunun Vəndam kəndində anadan olub. Ailələri ilə birgə Sumqayıt şəhərinə köçdüyündən buradakı 28 və 34 nömrəli məktəblərdə orta təhsil alıb. Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib və taqım komandirliyindən "general-mayor" ali hərbi rütbəsinədək yüksəlib. 4 iyul 2020-ci il tarixdə Ermənistan–Azərbaycan sərhədinin Tovuz istiqamətində düşmən təxribatlarının qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Onun nəşi Sumqayıta, ailəsinin yaşadığı 13-cü mikrorayona gətirilən gecə həyətdə, küçədə iynə atılsaydı, yerə düşməzdi. Kişi, qadın, böyük, uşaq – hamı gözləyirdi ki, qarşılanması daha da uvatlı olsun. Bu, həm də qəhrəman qarşısında camaatın vəfa borcu idi... Çox keçmədən hərbçilərin müşayiəti ilə Poladı gətirdilər. Üçrəngli Vətən bayraqları mükəddər şəkildə yellənirdi. Həmin son görüş həm də qürur, iftixar görüşümüz idi...

Vətənpərvərlik tədbirlərində Poladın anası Səmayə xanımı dəfələrlə görmüş, çıxışlarını dinləmişəm. "Mən səngər generalı yetişdirmişdim... Bayraqları ucaldan oğulların yeri behişt olsun!.." – deyən ana daim bu fikri bu və ya digər formada təkrarlayır ki, bu gün qalib dövlət və qalib xalqıq. Biz övladlarımızı itirsək də şərəfli ad qazandıq. Xalqımız, Vətənimiz sağ olsun!"

Amin deyərək xatırlayırıq ki, Polad Həşimov Tovuz döyüşlərinin 3-cü günü erməni ordusunun hücumu nəticəsində polkovnik İlqar Mirzəyev, mayor Anar Novruzov və Namiq Əhmədov, daha bir neçə hərbi qulluqçu və Ağdam kəndinin 76 yaşlı sakini həlak olub. Düşmən isə layiqli cavabını və cəzasını alıb.

Tovuz döyüşləri çağdaş Azərbaycanın hərb tarixinə zəfər döyüşü kimi daxil oldu. Dünya gördü ki, rəşadətli Ordumuz düşmənin hər cür təxribatlarının və gözlənilməz hücumlarının qarşısını qətiyyətlə almaqda çətinlik çəkmir. 100-dən çox hərbçisi və onlarla hərbi obyektləri məhv edilən Ermənistan silahlı bölmələrinin şəxsi heyəti hətta səngərləri qoyub qaçdı. Döyüşlər zamanı bir neçə gün ərzində yüzlərlə yaralı və ölü daşıyan ermənilər itkilərdən dəhşətə gəldilər.

Milli Ordumuz daha öncə Zəfərə gedən yolu 2016-cı ilin şanlı Aprel döyüşlərində, 2018-ci ilin uğurlu Günnüt əməliyyatında addım-addım qət etmişdi. Tovuz döyüşləri də ölkəmizə qarşı təxribatçı əməllərindən əl çəkməyən Ermənistan ordusunun növbəti mənfur niyyətini öz başında çatladan uğurlu əməliyyatlardan biri kimi tarixə düşdü. Tovuzda hərbi təxribat törətdiyi üçün burnu ovulan erməni faşistləri 2 ay sonra – sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində də daha böyük zərbələr alaraq, yerlə-yeksan edildilər.

Bəli, Tovuz döyüşləri Azərbaycanda xalq və Prezident, xalq və ordu birliyinin yenidən təcəssümünə çevrildi. Silahlı Qüvvələrimiz bir daha göstərdilər ki, təcavüzkar Ermənistan ordusu onların gücü qarşısında tamamilə aciz və zəifdir. Beləliklə də Azərbaycanın Vətən müharibəsində qazandığı Böyük Zəfərin ilk qığılcımlarından olan Tovuz döyüşləri Ermənistana tarix boyu davam edəcək böyük məyusluq, məğlubiyyət acısı yaşatdı.

***Ə.ƏLİYEV***
***XQ***

AMEA-dan xəbərlər

# Qərbi Azərbaycanın da ensiklopediyası yaradılır

**AMEA Rəyasət Heyətinin növbəti iclasında müzakirə olunan məsələlərdən biri "Qərbi Azərbaycan Ensiklopediyasının sözlüyü"nün təsdiq edilməsi olub.**

Akademik İsa Həbibbəyli sözlüyün hazırlanması üçün yaradılmış İşçi qrup tərəfindən keçirilmiş müzakirələr nəticəsində Rəyasət Heyətinə 2595 sözdən ibarət sözlüyün təqdim olunduğunu diqqətə çatdırıb. AMEA prezidenti İşçi qrupun fəaliyyətini yüksək qiymətləndirib, sözlüyün nəzərdən keçirilərək ixtisarlar və əlavələr edildiyini bildirib, əhatə dairəsinin, ümumilikdə, 2000 sözə endirilməsi ilə bağlı tapşırıqlarını verib.

Mövzu ilə bağlı çıxış edən Qərbi Azərbaycan İcmasının sədri, İşçi qrupun üzvü Əziz Ələkbərli icmada bütün sahələr üzrə komissiyaların fəaliyyət göstərdiyini bildirib və sözlüyün AMEA rəhbərliyinin və həmin komissiyaların iştirakı ilə yekun müzakirəsinin keçirilməsini təklif edib. O deyib ki, ensiklopediyada əzəli-əbədi torpaqlarımız olan Qərbi Azərbaycanın tarixi, coğrafiyası, etnoqrafiyası, adət-ənənəsi, folkloru, maddi və qeyri-maddi mədəni irsi, şəxsiyyətləri və s. ilə bağlı çoxlu məlumatlar, oçerklər toplanmalıdır.

İşçi qrupun rəhbəri – AMEA Tarix və Etnologiya İnstitutunun direktoru, professor Kərim Şükürov "XQ"yə açıqlamasında bildirib ki, sözlük təsdiq edildəndən sonra ayrı-ayrı hissələri müəlliflər arasında paylaşdırılıb. Ensiklopediya həyatın bütün sahələrini əhatə edəcək və qısa müddətdə nəşr olunacaq.




***

**AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tarix elmləri doktoru Zemfira Hacıyevanın çapdan çıxmış "AMEA-nın yaranma tarixi 1920–1945-ci illər" (rus dilində) kitabının təqdimat mərasimi keçirilib.**

Tədbiri açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli gələn ilin mart ayında akademiyanın yaranmasının 80 ilinin tamam olacağını bildirərək deyib ki, artıq keçiriləcək tədbirlərin ilkin planı müəyyən olunub, bununla bağlı müşavirə keçirilib. Həmçinin yubileyə töhfə olaraq "Azərbaycan Milli Elmlər Akademiyası simalarda" kitabı yenidən çapa hazırlanır.

Akademik elmi məsləhətçisi olduğu "AMEA-nın yaranma tarixi 1920–1945-ci illər" kitabının təqdimatının akademiyanın 80 illik yubileyinə həsr olunmuş ilk tədbirlərdən biri kimi mühüm əhəmiyyət daşıdığını söyləyib. Nəşrdə bu elm ocağının yaranma tarixinin sistemli şəkildə dərindən araşdırıldığını bildirib. O, nəşrin Moskvada rus dilində çap olunmasının Azərbaycan elminin dünya elmi mühitinə çatdırılması baxımından önəmini vurğulayıb.

Sonra AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, 6-cı çağırış Milli Məclis sədrinin müavini, professor Fəzail İbrahimli və başqaları kitabın məziyyətlərindən söhbət açıblar. Sonda nəşrin müəllifi Zemfira Hacıyeva çıxış edərək tədqimatın bütün iştirakçılarına xoş sözlərə görə minnətdarlığını bildirib.

***Ə.DOSTƏLİ***
***XQ***

# Film layihələri müsabiqəsi

**Azərbaycan Respublikasının Kino Agentliyi (ARKA) postprodakşn mərhələsində olan filmlərə dəstək müsabiqəsinin nəticələrini açıqlayıb.**




Məlum olduğu kimi, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında 2022-ci il 20 aprel tarixli Fərmanı milli kinematoqrafiyamızın və yayım infrastrukturunun müasirləşdirilməsi üçün geniş imkanlar açıb. Həmin fərmandan sonra ölkəmizin kino təsərrüfatında bir sıra islahat və yeniliklərin həyata keçirilməsinə başlanılıb. Məqsəd bu sahəni tam sənayeləşdirmək, rentabelli sahəyə çevirmək, milli məzmunla süstlənmiş universal kino dilində danışmağı bacaran yeni yaradıcı nəsil formalaşdırmaqdır.

ARKA-dan verilən məlumata görə, bu dövlət qurumu postprodakşn mərhələsində olan film layihələrinin tamamlanma işlərinin dəstəklənməsi üzrə müsabiqəni cari ilin may ayında elan etmişdi. Ölkədə film istehsalının stimullaşdırılması və səmərəliliyinin yüksəldilməsi, müstəqil prodüser mərkəzləri və müvafiq sahədə fəaliyyət göstərən digər şəxslər arasında rəqabət qabiliyyətinin artırılması və birgə film istehsalının dəstəklənməsi məqsədilə həyata keçirilən müsabiqə artıq yekunlaşıb. Tammetrajlı bədii və sənədli, qısametrajlı bədii, sənədli və animasiya filmləri kateqoriyasında keçirilən müsabiqəyə, ümumilikdə, 9 layihə müraciət etmişdi. Bədii şuranın dəyərləndirdiyi 6 layihəyə dövlət dəstəyi verilməsi qərara alınıb.

Həmin layihələr Mətləb Muxtarovun "Yaddaş sarayları", Elməddin Alıyevin "Geri dönüş", Tahir Tahiroviçin "Səssiz zaman", Ələmdar Faiqin "Qara pişik, ağ şanı", Hacıbala Səfərovun "Tərsinə kölgələr" və İlkin Yusifin "Sən haralısan, durna?" filmləridir.

Qeyd edək ki, ölkədə ilk dəfədir postprodakşn mərhələsində olan film layihələrinə dəstək müsabiqəsi keçirilir. Azərbaycan Respublikası Kino Agentliyi film layihələrinə dövlət dəstəyi məqsədilə ilboyu müsabiqələr keçirməyə davam edəcək.

***XQ***

# Xələcdə yeraltı yaddaş xəzinəsi

**Şərur rayonunun Xələc kəndi ərazisində fəaliyyət göstərən arxeoloji ekspedisiyanın məqsədi Azərbaycanın Yaxın Şərqlə sərhəd bölgəsində, xüsusilə, Naxçıvan diyarında qədim arxeoloji mədəniyyətlərarası keçidin xüsusiyyətləri və Cənubi Qafqaz–Yaxın Şərq əlaqələrində yeri ilə bağlı faktları araşdırmaqdan ibarətdir.**



Ekspedisiya AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Arxeoloji xidmət şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyevanın rəhbərliyi ilə ötən aydan fəaliyyətə başlayıb. AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi əməkdaşlarından ibarət komissiya qazıntı yerində aparılan araşdırmaların vəziyyəti ilə tanış olarkən Zeynəb Quliyeva hələlik, əldə olunan ilkin nəticələr barədə məlumat verib. O deyib ki, daha əvvəllər qazıntılar zamanı müxtəlif dövrlərə aid keramika nümunələrinin qeydə alınması buranın çoxtəbəqəli abidə olduğunu göstərirdi. Bu baxımdan II Xələcdən aşkar edilən tapıntılar Naxçıvanda Antik dövr mədəniyyətinin öyrənilməsi üçün əhəmiyyətlidir.

Hələlik, əldə edilən ilkin tapıntılar nisbi xronologiyanı e.ə. I minilliyin 2-ci yarısı – eramızın III–IV əsrləri arasında müəyyənləşdirməyə imkan verir. Araşdırmaların I mərhələsi maddi mədəniyyət abidəsi, keramika nümunələri və başqa arxeoloji materialların aşkar olunması ilə əlamətdardır. İyulun 28-dək davam edəcək qazıntıların növbəti mərhələsində də yeni faktların əldə edilməsi istisna edilmir.

***XQ***




# “Azpetrol” 27 yaşını qeyd edir!

**Bu gün Azərbaycanın ən böyük yanacaqdoldurma şəbəkəsinə malik olan "Azpetrol" şirkəti 27 yaşını qeyd edir. Ötən illər ərzində şirkət böyük inkişaf yolu keçərək, yanacaqdoldurma məntəqələrinin sayını 104-ə çatdırıb.**

“Azpetrol” brendinin möhkəmləndirilməsi və coğrafiyasının Qarabağa genişləndirilməsi, şirkətin strateji inkişaf planının qısamüddətli prioritet istiqamətlərindəndir. Artıq Zəngilanda, Hadrutda, Suqovuşanda, Xankəndidə, Füzulidə və Şuşada “Azpetrol”un modul tipli yanacaqdoldurma məntəqələri fəaliyyət göstərir. Şirkət Qarabağa “Böyük Qayıdış” planının tərkib hissəsindən olan məşğulluğun təmin edilməsi məsələsinə bununla öz töhvəsini vermiş olur.

Qeyd edək ki, "Azpetrol" şirkətinin yaranması, inkişafı və uğurlu fəaliyyəti ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanda iqtisadiyyatın və sahibkarlığın inkişafı sahəsində görülən işlərin nəticəsində mümkün olmuş və respublikanın neft strategiyasının inkişafına təkan vermiş 1994-cü ildə “Əsrin Müqaviləsi”nin imzalanmasının məntiqi nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilməsi davam edən yeni neft strategiyasının məqsədləri isə, “Azpetrol” şirkətinin fəaliyyət istiqamətlərinin yol xəritəsidir.

Azpetrol şirkətinin ilk yanacaqdoldurma məntəqəsi – “Spartak”, 1997-ci il iyulun 15-də Bakı şəhəri, Nəsimi rayonu, Moskva prospekti, 1013-cü məhəllə ünvanında açılıb. Şirkətin hazırda ölkəmizin əksər iqtisadi zonalarında, ümumilikdə 104 yanacaqdoldurma məntəqəsi, 1 maye qazdoldurma (propan-butan) məntəqəsi, ictimai nəqliyyatda sərnişindaşımaya xidmət edən respublikada ən muasir standartlara cavab verən 1 sıxılmış təbii qaz (CNG) terminalı, yanacaq məhsullarının saxlanılması üçün Neftbaza, yanacaqdaşıyan maşınlar üçün Avtobaza, yanacağın yanacaqdoldurma məntəqələrinə fasiləsiz daşınmasını təmin etmək üçün 119 ədəd yanacaq daşıyan avtomobili, minik maşınları üçün Avtosahə mövcuddur. Fəaliyyət göstərən yanacaqdoldurma məntəqələrində 4 sıxılmış təbii qazdoldurma postu, 4 maye qazdoldurma postu və 20 elektromobillərin enerji ilə doldurulma postu, 8 motel, eyni zamanda, müxtəlif xidmətlərin göstərilməsi üçün əksər məntəqələrdə iaşə obyektləri fəaliyyət göstərir. “Azpetrol” Azərbaycanda ən iri işəgötürənlər siyahısındadır və hazırda şirkətdə 3400-dən yuxarı əməkdaş çalışır.

**Azpetrol – Daim inkişafa doğru!**

# Paris Olimpiadası: Əsas hədəf qızıl medaldır

## Boksçularımız, siz Olimpiya qalibləri olmağa layiqsiniz!

**Antik Olimpiya Oyunlarının proqramına daxil edilən boks müasir dövrdə də populyarlığını saxlayır. Paris Yay Olimpiya Oyunlarında dünyanın 48 ölkəsindən 49 komandanın (Qaçqınların Olimpiya Komandası da daxil) heyətində 121 kişi boksçunun 7 çəki dərəcəsində “döyüşü” Olimpiadada mübarizənin həyəcanlı səhnələri olacaq. Kainatın güclü dəri əlcək ustalarının yarışında Azərbaycandan 5 boksçu qatılacaq.**




Millimiz lisenziya sayında Avropa ölkələri arasında İspaniya ilə 1-ci yerə şərikdir. Parisdə mübarizə aparacaq 121 boksçudan yalnız 48-i “köhnə qitə”ni təmsil edəcək. Onu da diqqətə çatdıraq ki, Avropanın cəmi 20 ölkəsi Olimpiya lisenziyası qazana bilib. İtaliya, Ukrayna, Böyük Britaniya kimi boks ölkələri daha az idmançı ilə təmsil olunacaq.

Bununla, yığmamız əldə edilən lisenziyaların sayına görə, dünyanın yalnız 3 ölkəsindən – maksimum – 7 biletə malik Özbəkistan və Qazaxıstan, 6 vəsiqəsi olan Avstraliyadan geri qalır. 4-cü yerdə Kuba kimi boks lideri ilə eyni göstərici qazanmağımız, hətta bütün olimpiadalarda qabaqcıl mövqeyi, zəngin boks ənənələri olan ABŞ kimi ölkəni qabaqlamağımız şanslarımızın yüksəkliyini göstərir.

Xatırladaq ki, mötəbər yarışa yollanacaq boksçularımızdan 2-si – Alfonso Dominqes (92 kq) və Məhəmməd Abdullayev (+92 kq) 2-ci dəfə Olimpiya Oyunlarında iştirak edəcəklər.

Alfonso Dominqesin Tokio Olimpiadasında bürünc medal qazandığdan sonra uğurlarını davam etdirməsi onun yaxşı formada olduğunu göstərir. O, 2021-ci ilin noyabrında Belqrad şəhərində Dünya çempionatının qalibi, 2023-cü ildə Daşkənd mundialında 2-ci yerin sahibi olub.

Məhəmməd Abdullayev isə 2021 və 2023-cü illərdə keçirilmiş dünya çempionatlarında bürünc medal qazanıb. O, ötən il keçirilmiş III Avropa Oyunlarının gümüş mükafatçısı olub. 25 yaşlı boksçu Olimpiadada fəxri kürsünün yüksək pilləsini hədəfləyib. O, açıqlamalarında Oyunlarda medal qazandıqdan sonra peşəkar boksa keçməyi qərarlaşdırdığını bildirib.

Fransaya yollanacaq yığmamızın üzvlərindən ən yüngül çəkidə Nicat Hüseynov (51 kq) Olimpiadadan yalnız çempion kimi qayıtmaq arzusundadır. İkiqat Avropa çempionumuz Olimpiadaya vəsiqə uğrunda I Dünya Olimpiya Təsnifat Turnirindəki 4 görüşün hər birində güclü və titullu boksçuları məğlub edib. Startda dünya çempionatının hindistanlı bürünc medalçısı Deepak Deepaka, ardınca mundialın gürcüstanlı finalçısı, Avropa çempionu Sahil Alahverdovinə, daha sonra Avropa çempionatının 2-cisi erməni Rudolf Qarboyana, nəhayət dördəbir finalda Rosko Hillə (ABŞ) qalib gələrək vəsiqəni rəsmiləşdirib. Gənc idmançımızın arzusu Azərbaycana boksda ilk Olimpiya “qızıl”ını qazandırmaqdır. O, Olimpiadada ancaq çempionluq mübarizəsi aparacağını deyib.

Komandamızın digər üzvü Malik Həsənov (63,5 kq) Avropa çempionatının bürünc, Avropa kubokunun gümüş mükafatçısıdır. 26 yaşlı boksçumuz qəzetimizə açıqlamasında hazırda yaxşı formada olduqlarını bildirdi:

– Hazırlıq başa çatmaq üzrədir. Türkiyə və Özbəkistanda təlim-məşqlər keçmişik. Texniki, taktiki və fiziki hazırlığımız üzərində işləmişik. Yoldaşlıq döyüşləri, güclü rəqiblərlə sparrinqlər keçirmişik. Artıq Almaniyadayıq və hazırlığımızı davam etdiririk. Buradan maksimum gücümüzlə, yüksək nəticə üçün Parisə yollanacağıq.

Millimizin gənc rinq ustası Murad Allahverdiyev (80 kq) olimpiadaya lisenziyanı III Avropa Oyunlarında təmin edib. 21 yaşlı boksçu dünyanın ən mötəbər idman yarışında ölkəmizi layiqincə təmsil etmək üçün potensiallarından tam istifadə edəcəklərini deyib.




Qeyd edək ki, müstəqil Azərbaycanda “Atlanta-1996” istisna olunmaqla, komandamız boks üzrə bütün olimpiadalardan medalla qayıtsa da, qızıl medal qazana bilməyib. Azərbaycan Boks Federasiyasının prezidenti Sahil Babayev Oyunlara lisenziya qazanan boksçularla görüşündə 5 çəki dərəcəsində təmsilçiliyimizi yüksək qiymətləndirib. O, əsas hədəfin boksçularımızın Parisdə qızıl medal qazanması olduğunu vurğulayıb.

Əminik ki, komandamız qarşıya qoyulacaq hədəfə çatacaq gücdədir.

***Leyla QURBANOVA***
**XQ**

# MEDİA müsabiqə qaliblərini elan edib







**Medianın İnkişafı Agentliyi tərəfindən iyunun 10-da elan olunmuş "Fərdi jurnalist müsabiqəsi"nin nəticələri açıqlanıb.**

“Ən yaxşı reportaj”, “Ən yaxşı ictimai-siyasi təhlil”, “Ən yaxşı sosial-iqtisadi təhlil”, “Ən yaxşı müsahibə”, “Ən yaxşı mədəniyyət materialı”, “Ən yaxşı köşə yazısı”, “Ən yaxşı jurnalist araşdırması”, “Ən yaxşı oçerk” və “Ən yaxşı reportaj” mövzuları üzrə qaliblər müəyyənləşib.

Xatırladaq ki, qaliblər arasında “Xalq qəzeti”nin 2 əməkdaşı da var.

**XQ**

# R.Beqlaryan 15 il azadlıqdan məhrum edildi

**Xocalıda azərbaycanlılara qarşı soyqırımı törətməkdə və terrorçuluqda təqsirləndirilən Raşid Beqlaryan 15 il müddətinə azadlıqdan məhrum edilib.**



Hökm Sabunçu Rayon Məhkəməsində Füzuli Hərbi Məhkəməsinin hakimi Əli Süleymanovun sədrliyi ilə keçirilən məhkəmə iclasında elan edilib.

Məhkəmədə Raşid Beqlaryanın hər hansı psixi xəstəlikdən əziyyət çəkmədiyi, hadisəni törədərkən anlaqlı olduğu hesab edilib. Məcburi müalicəyə ehtiyac olmadığı bildirilib.

Həmçinin, cinayət işinin materialları elan edilib. Məhkəmə istintaqının tamamlanması barədə qərar qəbul olunub. Təqsirləndirilən şəxs məhkəmə istintaqının tamamlanmasına etiraz etməyib.

Daha sonra dövlət ittihamçısı R.Beqlaryanın 17 il azadlıqdan məhrum edilməsini istəyib.

Zərərçəkmiş şəxs Hüseynov Əkbər Hüseyn oğlu çıxış edərək təqsirləndirilən şəxsə daha ağır cəza verilməsini xahiş edib: “Əsgər yoldaşımı öldürüb, qanını mənə içiriblər”.

Məhkəmə müşavirəyə yollandıqdan sonra hökm elan edilib. Hökmə əsasən, R.Beqlaryan 15 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edilib ki, o, cəzasının 5 ilini ümumi rejimli həbsxanada, yerdə qalan hissəni isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkəcək.

**XQ**

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

Cəmiyyətə məxsus “Kalmar” markalı konteyner yükləyicilər üçün ehtiyat hissələrinin satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 1 avqust 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu – (+99412) 599-00-03 (daxili 3706).
Ünvan – AZ1010. Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 145 (30549) 13 iyul 2024-cü il, şənbə

# Dünya əhalisi artacaq və azalacaq

**Dünya əhalisinin 2080-ci illərdə pik həddə çatacağı gözlənilir. Bu barədə Birləşmiş Millətlər Təşkilatının (BMT) yeni məlumatında qeyd olunub. Bildirilir ki, alimlərin hesablamalarına görə, yalnız 10 milyard nəfərə çatdıqdan sonra, yəni 2084-cü ildən etibarən dünya əhalisinin sayı azalmağa başlayacaq.**



Tədqiqatçılar bildirirlər ki, hazırda dünyada qadınlar 1990-cı illə müqayisədə orta hesabla daha az uşaq dünyaya gətirirlər. Hər bir qadına orta hesabla 2,2 uşaq düşür.

Buradan da belə bir nəticəyə gəlmək olar ki, doğulanların sayının azalması ölümlərin sayının artması ilə müşayiət olunacaq və dünya əhalisi qocalmağa başlayacaq.

Xatırladaq ki, dünyanın ən sıx məskunlaşdığı iki regionu 2,3 milyard insanın yaşadığı Şərqi və Cənub-Şərqi Asiya, eləcə də 2,1 milyard insanın yaşadığı Mərkəzi-Cənubi Asiyadır.

***S.FİDAN***
***XQ***

# Yenə Aranda yağmursuz, dağlarda yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 13-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gündüz ayrı-ayrı yerlərdə arabir yağış yağacağı, yarımadanın bəzi yerlərində qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 21-26°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 45-50 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əksər rayonlarda əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 22-27°, gündüz 35-38°, bəzi yerlərdə 40°, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

*✓ “SEDEF PHARMA” MMC-yə məxsus dərman vasitələrinin topdan satışı fəaliyyətinə aid İN/L-73/2017/1 qeydiyyat nömrəli, 25 yanvar 2017-ci il tarixli lisenziya əlavəsi itdiyi üçün etibarsız sayılır.*

***VÖEN – 3102046881.***

**Şəfəq Əlibəyli – 75**

# Ədəbiyyatşünasın ömür hesabatı





**Dünən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində komparativistika və bədii tərcümə şöbəsinin müdiri, professor Şəfəq Əlibəylinin 75 illik yubileyi keçirilib.**

Mərasimdə muzeyin direktoru, akademik Rafael Hüseynov Şəfəq Əlibəylinin elmi və pedaqoji fəaliyyətindən danışıb. Akademik bildirib ki, şair Ənvər Əlibəylinin ailəsində dünyaya göz açan Şəfəq Əlibəyli Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirib. 1985-ci ildə filologiya elmləri namizədi, 2010-cu ildə filologiya elmləri doktoru elmi dərəcəsini alıb. Şəfəq Əlibəyli dilçilik üslubiyyatı, leksikologiya və leksikoqrafiya sahəsində farsdilli mənbələr əsasında tədqiqatlar aparıb. Onun elmi məqalələri ölkəmizdə və xaricdə elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Alim iki monoqrafiya və bir lüğətin müəllifidir: “Fars dilində antonimlər” (rus dilində), “Füzulinin farsca divanı: linqvo-poetik özəlliklər”, “Farsca-rusca-azərbaycanca müxtəsər lüğət”. Bundan əlavə, Şəfəq Əlibəylinin “Foruğ Fərruxzad. Şeirlər”, “Əmir Xosrov Dəhləvi. Qəzəllər və tapmacalar”, “Həbibulla Sənayi Puya. Rübailər” və digər tərcümələri var.

Şəfəq Əlibəyli 2021-ci ildə Azərbaycanda muzey işinin inkişafı və mədəni irsin təbliğində səmərəli fəaliyyətlərinə görə III dərəcəli “Əmək” ordeni ilə təltif edilib.

Toplantı Şəfəq Əlibəylinin qələm dostlarının, həmkarlarının yubilyar haqqında çıxışları ilə davam edib. Akademik Möhsün Nağısoylu, filologiya elmləri doktoru, professor Mehdi Kazımov, dosent Tofiq Cahangirov, professor Raqub Kərimov, Bakı Dövlət Universitetinin dosentləri Əsmətxanım Məmmədova, Nüşabə Əlizadə, filologiya üzrə fəlsəfə doktoru Laura Orucova və başqaları yubilyarı təbrik etdilər, ona yeni uğurlar arzuladılar.

***Qabil YUSİFOĞLU***
***XQ***

**Həyatın içindən**

# Ağabala kişi, Pikasso və pul

**Bir müddət əvvəl dostlara zarafatla belə bir sual vermişdim: “Adamın alacağı olsa yaxşıdı, yoxsa qanacağı?” Sağ olsunlar, hərə öz fikrini söylədi. Mənim cavabım da bu yazı oldu.**



Kimi dindirirsən sənə ürək-dirək verib: “Canın sağ olsun, pul əl çirkidir”, – deyir. Ancaq əli-ayağı yer tutanların böyük əksəriyyəti gecə-gündüz "əl çirki" uğrunda mübarizədədir. Biri ağılı-biliyi, başqası alın təri hesabına çörəyini çıxarır, süfrəsinə haram tikənin girməsinə razı olmur. Kimi də hər yola, hər sifətə düşür ki, təki çox pul qazansın, sərvət toplasın. Arvad-uşağına, evinə gələn qonağına haram tikə yedizdirir və camaat arasında da kişiləşib deyir ki, pul qazanmaq hər oğulun işi deyil. Orasını doğru deyir, pul qazanmaq hər oğulun işi deyil, bu şərtlə ki, təmiz qazanasan, kiminsə çörəyinə dəyməyəsən, rüşvət almayasan, ağılına, bacarığına güvənəsən. Ola bilər kimsə gülüb deyə ki, siz qazana bilmirsiniz ona görə belə danışırsınız. Qoy desin, nə olar, dünya dağılmaz ki...

Ancaq dünya xali deyil, mən elə oğlan tanıyıram ki, bank işçisi idi, ayda əmək haqqından əlavə (bilmirəm, bu sözü niyə lüğətimizdən çıxarmaq istəyirdilər?) paketdə ona verilən 2 min manatdan imtina etdi və işdən çıxdı. Xahiş edirəm o gənci qınamayın, deyir ki, əməkhaqqı məni qane eləmədi, həm də mən ailəmə haram tikə yedirtmək istəmədim. O qardaşa heyranam: özünə – ağlına, bacarığına güvənir. Belə olmasaydı, qısa müddətdə əvvəlki ilə müqayisədə ikiqat çox əməkhaqqı verilən yeni işə düzələ bilməzdi...

Elə biz də hər səhər Allah verəndən yeyib, yollanırıq işə, qısaca desək, pul qazanmağa. Çünki bazar cəmiyyətində hər şeyi olmasa da, çox şeyi pulla almaq olur. Və bir də indi pul qazana bilməyən adama birtəhər baxırlar: əfəldi, aciz-avaradı... deyirlər. Nöşün ki, lap ağılın, biliyin başından aşsın, Marks ol, Nyuton ol, pul qazana bilməsən, evdə arvad-uşaq da sənə hörmət qoymur. Hacı Qara demişkən, “Adamı adam eyləyən paradır, parasız adamın üzü qaradır”. Görünür ki, o, bu fikri Dubaydan mal gətirib mayanı tamam batırandan sonra deyib. Çünki bu cür dəqiq və yanıqlı ifadələr ancaq pulsuzluğun yandırıb yaxdığı insanın ürəyindən qopa bilər. Yoxsa, gündə “çax-çux”u olan, yaxud “qaz vurub-qazan dolduran”ın ağlından belə fikir keçə bilməz.

Söhbətə pulla başlamağımızın səbəbkarı səhər meyvə alarkən görüşdüyüm Ağabala kişidir. Qoy əvvəlcə söyləyim ki, Ağabala kişi bizim binada yaşayır. Açığını desəm, mənim ondan xoşum gəlmir. Çünki işi düşməsə çətin ki, sənə salam verə. Amma, neyləmək olar, həm qonşudur, həm də yaşlıdır, gərək hörmətini saxlayaq. Hə, onu da deyim ki, Ağabala kişi son günlər mənə tez-tez salam verir, hətta, hal-əhval tutur. Niyəsini nə qədər fikirləşirəm, tapa bilmirəm.

Məlumat üçün onu da deyim ki, Ağabala kişi sovetlər dövründə uzun illər ticarətçi olub, tərəzi dalında dayanıb. Onun keyfini nə vaxt soruşsaydın, elə sözlər dilə gətirirdi ki, az qalırdın dəsmal götürüb halına ağlayasan. Deyirdi ki, borcun içindəyəm, bu yandan da milis rəisi, “narodnı kontrol”, “revizor”, “it-qurd” imkan vermir gözümüzü açmağa. Elə gəlirlər, ver, ver!... Çoxları bilirdilər ki, Ağabala kişinin bu sözləri yalandı.

Deyirdilər ki, onun elə ağlamağına baxma, hər oğluna bir mülk alıb, maşın alıb, hər yay da kurortlardadı... Ağabala kişi dükana gətirdiyi xarici malların çoxunu altdan satırdı, özü də baha qiymətə. Bir də o, dolana bilmirdisə, niyə ordan qovulandan sonra həmin yerə qayıtmaq üçün dəridən-qabıqdan çıxırdı, ona-buna minnətçi düşürdü? O, çox insafsız satıcı idi və tərəziyə də gəlir mənbəyi kimi baxırdı. Bir balaca həmsöhbət olan kimi, söhbət etdiyi adamdan soruşardı: “Babat qazana bilirsən?”

...Bir şəkili qardaşım hərdən yarızarafat-yarıgerçək deyir ki, indiki zəmanədə qanacaqdan alacaq yaxşıdı. Mən bilirəm, o, özü yaxşı bilir ki, qanacaqlı insan olmaq nadan, mərifətsiz pulludan qat-qat yaxşıdır. Lakin o da var ki, indi təsadüfü halda deyirlər: “failankəs qanacaqlı adamdır”. Amma həmin şəxs hansı yollasa varlanmış olsa belə onu barmaqla göstərib deyirlər: “Onu görürsən, pul onda saman kimidi, pulu saymır, kilonan çəkir...”. Daha heç kim soruşmur ki, o şəxsin qanacağı neçə kilodu, neçə faizdi? Halbuki, insanın imanlı, başqa sözlə desək, adam kimi adamlığının başlıca şərti əxlaqlı, mərifətli olmasıdır.

Bu sözləri, uzun da olsa, sizə açacağım bir mətləbə görə yazdım. Çünki danışacağım söhbət hər yadıma düşəndə məni yaman dilxor eləyir.. Məsələ belədi ki, qonşum Yaqub kişinin nəvəsi Murad, digər qonşum Ağabalanın kiçik qızını sevir. Uşaqlar orta məktəbdə də bir yerdə oxuyublar. Hazırda Murad konservatoriyanın axırıncı kursunda oxuyur, qız isə tibb bacısıdı. Murad çox qanacaqlı oğlandı. Həyətdə qonşulardan kimi görsə görüşür, hal-əhval tutur, deyir ki, bir köməyə ehtiyacın olsa, həmişə hazıram. Həm də konservatoriyada əla oxuyur. Hətta bəstələdiyi bəzi musiqi nümunələri beynəlxalq müsabiqələrdə mükafat qazanıb. Onun yaxşı bəstəkar olacağına şübhəmiz yoxdur.

O qədər savadlı olmayan Yaqub kişi nəvəsi ilə fəxr edir, onun istedadını qiymətləndirir. Ağabala kişi isə Muradın mərifətini və istedadını qiymətləndirmir. Elə buna görə də qızını Murada vermək istəmir. Yaqub kişi deyir ki, özü ilə ikilikdə söhbət eləmişəm, bir dəfə elçi də getmişəm, hər dəfə də Ağabalanın son sözü bu olub: “Sənin nəvən çörək qazanana, pulu pul üstünə qoyana, ailə dolandırana oxşamır. Onun tayları Bakıda neçə toçka sahibidi, beş-on gündən bir xaricdən mal gətirir, yaxşı pul qazanır. O, yapışıb skiripkanın quyruğundan, səhər-axşam cüyüldədir. İndi pul zəmanəsidi. Qoy gedib “tolkuçka”da iki-üç yer kirayələsin, alış-verişlə məşğul olsun. Nə vaxt əli pullansa, onda baxarıq...”

Yaqub kişi bu söhbəti mənə danışanda yaman təsirlənmişdi. Deyir, vaxtında əlimdən gələn köməyi eləmişəm ona. Mən pensiyaya çıxandan sonra öz maşınımla taksovatdıq elədim. İndi Ağabala mənnən pulnan danışır... Dünyanın işinə bax, ha, əyri, oğru düzə dərs deyir, pul qazanmağın yolunu öyrədir.

Kişini sakitləşdirdim. Dedim ki, Yaqub kişi, darıxma, Ağabala tez-gec səhvini anlayacaq. Bir də ki, uşaqlar bir-birini istəyirsə, qızını güclə başqasına verməz. Minnəti olsun, Murad kimi mərifətli, savadlı kürəkəni hardan tapacaq? Lazım gəlsə, qonşularla yığışıb onu yola gətirərik... Bu sözlərdən sonra Yaqub kişi dedi ki, bircə nəvəm var, onun toyunu da görsəydim, bu fani dünyadan rahat gedərdim...

Son günlər həmin söhbət yadıma düşəndə şəkili qardaşın yarızarafat-yarıgerçak dediyi sözləri xatırlayıram.

...Ağabala kişi yenə tərəzi dalında dayanır. O, binamızın yanındakı qarajlardan birini icarəyə götürüb və oranı meyvə-tərəvəz dükanına çevirib. Oğlu Balağa səhər tezdən “Meyvəli”yə gedib lazım olan məhsulları alıb gətirir, Ağabala kişi də nəvəsi ilə həmin meyvə-tərəvəzi satır.

Bu gün meyvə-tərəvəz alarkən onunla salamlaşdım. Kefimi-halımı soruşdu, sonra dedi ki, “Meyvəli”-də yenə qiymətləri qaldırıblar, daha alış-veriş sərf eləmir. Mən ona cavab vermədim. Dükandan çıxanda soruşdu ki, müəllim, sən bilərsən, Pikasso haralıdı? Onun bu sualı mənə qəribə gəldi. Fikirləşdim ki, Ağabala kişi hara, Pikasso hara? Axı bu dünyada, belə demək olarsa, onun gözü puldan başqa heç nəyi yaxşı görmür, heç kimi tanımır. Sualına cavabı özü vermiş kimi oldu. Dedi ki, dünyada sarsaq adamlar çoxmuş. Sən götür 104 milyon dolları ver balaca bir şəkilə ki, iş bilmişəm. Özü də şəkil, nə şəkil. Atamın goru haqqı, o şəkli mənim nəvəm çəksəydi, ona heç yüz dollar da verməzdilər. Nə olsun Pikasso çəkib...

Ağabala kişiyə Pikassonun sənəti haqda məlumat vermək istədim, ancaq fikrimdən vaz keçdim. Çünki tələsirdim. Yolda yadıma Ağabala kişinin Pikasso barədə sualı düşdü. Xatırladım ki, bir müddət əvvəl Nyu-York auksionlarının birində Pablo Pikassonun "Qəlyan çəkən oğlan" əsərinin satışı keçirilmişdi. Ay səni, Ağabala kişi! Öz-özümə dedim ki, kaş adamın uşaqlarından, yaxud qardaşlarından biri Piksasso kimi rəssam ola. 103 milyon dollarla işim yoxdu, qalan milyon dollardan lazım olanda verə bala-bala xərcləyəsən. Onsuz da pul “əl çirki”di.

***Səməd MƏLİKZADƏ***

## ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi tanınmış jurnalist

**Dilbər AXUNDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2997
SİFARİŞ 1518
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00